# ABŞ-SƏUDİYYƏ NÜVƏ SAZİŞİNİN PƏRDƏARXASI

ABŞ-Səudiyyə nüvə sazişinin Yaxın Şərqdə nüvə silahlanması yarışını gücləndirəcəyindən ehtiyat edilir.

ABŞ və Səudiyyə Ərəbistanı arasında nüvə əməkdaşlığı ilə bağlı imzalanan saziş, onun mahiyyəti son vaxtlar ən çox müzakirə olunan geosiyasi məsələlər sırasındadır. Bu, təkcə iki ölkə arasındakı strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoyması deyil, həm də regionun təhlükəsizlik arxitekturasına və nüvə balansına təsir göstərə biləcək mühüm addım kimi qiymətləndirilir.

SƏHİFƏ 5-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

1 AVQUST ŞƏNBƏ 2026 № 28 (4279) Qiyməti - 60 qəpik www.kaspi.az



## MƏRKƏZİ ASİYA İLƏ ƏMƏKDAŞLIQ DƏRİNLƏŞİR

Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi Məşvərət Görüşünün sonunda Çolpon-Ata Bəyannaməsi imzalanıb. Sənəd gələcək qarşılıqlı əməkdaşlıq prioritetlərini müəyyənləşdirir.

SƏHİFƏ 3-də





## İRAN NÖVBƏTİ DƏFƏ SİNİFDƏ QALDI

Molla rejiminin reallıqları dərk etməyən qanadlarının Azərbaycanı hədəf almasına cavabımız özünü çox gecikdirmir. Son illərdə müşahidə olunan proseslər bunun əyani sübutudur.

SƏHİFƏ 4-də

# QARDAŞLIQ ƏLAQƏLƏRİ YENİ ZİRVƏDƏ



Prezident İlham Əliyevin Qırğızıstan səfəri tək ikitərəfli münasibətlərin inkişafı baxımından yox, həm də bütövlükdə Türk Dünyası çərçivəsində inteqrasiyanın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

**AZƏRBAYCAN PREZİDENTİNƏ DƏRİN EHTİRAM**

Çolpon-Atada Prezident İlham Əliyevin həmkarı Sadır Japarov ilə təkbətək görüşü olub. Daha sonra Azərbaycan və Qırğızıstan prezidentlərinin təltifolunma mərasimi keçirilib. Sadır Japarov 1-ci dərəcəli "Manas" ordenini dövlətimizin başçısına təqdim edib.

**QARŞILIQLI FƏAL SİYASİ DİALOQ**

Son illərdə Azərbaycan ilə Qırğızıstan arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə yüksəlib. Dövlətlərin ali rəhbərlikləri arasında formalaşmış yüksək etimad, fəal siyasi dialoq, beynəlxalq təşkilatlar səviyyəsində qarşılıqlı dəstək ikitərəfli münasibətlərin strateji məzmununu daha da dərinləşdirir.

SƏHİFƏ 2-də



## ŞƏKƏR İSTEHSALINDA REKORD ARTIM

Azərbaycanda şəkər istehsalı əhəmiyyətli dərəcədə artıb. Ekspertlər bunu dövlət dəstəyi və istehsal imkanlarının genişlənməsi ilə əlaqələndirsələr də, yerli xammal bazasının gücləndirilməsini vacib sayırlar.

SƏHİFƏ 12-də



## ELEKTROMOBİL BAZARINDA YENİ ÇAĞIRIŞ

Elektromobillər üçün yeni enerji doldurma məntəqələrinin quraşdırılması əhəmiyyətli dərəcədə zəifləyib. Bəzi mövcud məntəqələr isə texniki nasazlıq səbəbindən istifadəyə yararsız vəziyyətə düşüb.

SƏHİFƏ 13-də

Agentlik hazırlıq prosesini davam etdirir

# DƏRMANLARI PULSUZ NƏ VAXT ALACAĞIQ?



Ambulator şəraitdə resept əsasında təyin olunan dərman vasitələrinin icbari tibbi sığorta hesabına təmin ediləcəyi xəbəri cəmiyyət tərəfindən müsbət qarşılandı. Çünki bu yeniliyin vətəndaşların dərman xərclərini azaldacağı gözlənilirdi. Lakin indiyədək bu mexanizmin praktik tətbiqi geniş şəkildə hiss olunmur və vətəndaşlar onun nə vaxt tam şəkildə həyata keçiriləcəyini səbirsizliklə gözləyirlər.

SƏHİFƏ 8-9-da



## ÇİNDƏ HAMININ GÖRMƏK İSTƏDİYİ İKİ MƏKAN

Böyük Çin Səddi dünyanın ən böyük müdafiə istehkamı, "Qadağan olunmuş şəhər" Çin imperatorlarının sirrini qoruyan saray kompleksi kimi məşhurdur. Bunları canlı görmək tamamilə başqa hissdir.

SƏHİFƏ 15-də



## TRANSFER BAZARINDA İSTİ YAY

Yay transfer pəncərəsinin bağlanmasına kifayət qədər vaxt qalsa da, artıq bir sıra böyük keçidlər reallaşıb, bəzi klublar rekord məbləğlər xərcləyib. Bazarda yenə də əsas söz sahibi İngiltərə klublarıdır.

SƏHİFƏ 16-da



**İllik inflyasiya proqnozları artırıldı**

SƏHİFƏ 10-da



**Azərbaycan tranzit yarışında önə çıxır**

SƏHİFƏ 6-da



**Ərəb turistləri qaytarmaq hədəfi**

SƏHİFƏ 7-də



**Yollarımız niyə çökür?**

SƏHİFƏ 11-də



**Müəllim, diplomat, tarixçi, ədib...**

SƏHİFƏ 14-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# QARDAŞLIQ ƏLAQƏLƏRİ YENİ ZİRVƏDƏ

**Prezident İlham Əliyevin Qırğızıstan səfəri tək ikitərəfli münasibətlərin inkişafı baxımından yox, həm də bütövlükdə Türk Dünyası çərçivəsində inteqrasiyanın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.**

F.ABASOĞLU

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ikitərəfli münasibətləri genişlənməkdədir. Prezident İlham Əliyevin Qırğız Respublikasına son dövlət səfəri Bakı-Bişkek əlaqələrinin inkişafında yeni dinamika kimi dəyərləndirilir.

Səfər çərçivəsində iyulun 31-də Çolpon-Ata şəhərində Prezident İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək görüşü olub. Daha sonra Azərbaycan və Qırğızıstan prezidentlərinin təltifolunma mərasimi keçirilib. Sadır Japarov 1-ci dərəcəli "Manas" ordenini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev isə "Heydər Əliyev" ordenini Qırğız Respublikasının Prezidenti Sadır Japarova təqdim edib. Dövlət səfəri çərçivəsində iki ölkə arasında əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı çoxsaylı ikitərəfli sazişlər də imzalanıb. Dövlət başçıları "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının üçüncü iclasının Qərarı"nı və "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"ni imzalayıblar.

Qeyd edək ki, Çolpon-Ata şəhərində Prezident İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının üçüncü iclası da keçirilib.

Prezident S.Japarov bildirib ki, Qırğızıstanda Prezident İlham Əliyevə - qardaş Azərbaycanın liderinə və qırğız xalqının əziz dostuna böyük hörmət bəsləyirlər: "Sizin rəhbərliyinizlə Azərbaycan inamla inkişaf edir, beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirir, regionda sülhün və sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bu gün ölkə böyük təəssürat doğuran nəticələr nümayiş etdirir, ardıcıl olaraq genişmiqyaslı islahatlar həyata keçirir və milli maraqlarını qətiyyətlə müdafiə edir".

S.Japarovun sözlərinə görə, Qırğızıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlığın inkişafına mane ola biləcək həll edilməmiş heç bir məsələ yoxdur: "Əksinə, tam etimad və açıqlıq mühiti yaranıb ki, bu da bizə inamla irəliləməyə imkan verir. Məhz belə bir ab-havada ikitərəfli əməkdaşlığın gələcəyini formalaşdıran mühüm prinsiplər və təşəbbüslər yaranır, qərarlar qəbul edilir. Əldə edilən bütün razılaşmaların birgə inkişafa və ortaq məqsədlərə çatmaq üzrə səmimi səylərə əsaslanması xüsusilə vacibdir. Qırğız-Azərbaycan əməkdaşlığı nəqliyyat, energetika, investisiya, təhlükəsizlik, təhsil və digər sahələrdə qarşılıqlı fəaliyyətin daha da genişlənməsi üçün əhəmiyyətli potensiala malikdir".

## QARŞILIQLI MÜNASİBƏTLƏRDƏ KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏ

Prezident İlham Əliyev S.Japarova Qarabağın bərpasında köməyə görə təşəkkür edib: "Ağdam bölgəsində Sizinlə birlikdə açılışını etdiyimiz məktəb Manasın adını daşıyır, orada uşaqlar artıq təhsil alırlar. Bu məktəb qardaşlığımızın daha bir rəmzidir, həmçinin xalqlarımızın birliyinin abidəsi kimi daim qalacaqdır".



Qeyd edək ki, son illərdə Azərbaycan ilə Qırğızıstan arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə yüksəlib. Dövlətlərin ali rəhbərlikləri arasında formalaşmış yüksək etimad, fəal siyasi dialoq, bunun məntiqi nəticəsi olaraq qarşılıqlı səfərlərin intensivliyi, həmçinin beynəlxalq təşkilatlar səviyyəsində qarşılıqlı dəstək ikitərəfli münasibətlərin strateji məzmununu daha da dərinləşdirir. Azərbaycan Respublikası və Qırğız Respublikası Dövlətlərarası Şuranın üçüncü iclasının yekununda imzalanan Qərarda iki ölkə arasında münasibətlərin artıq müttəfiqlik səviyyəsinə yüksəlməsinin xüsusi vurğulanması Azərbaycan-Qırğızıstan əlaqələrinin keyfiyyətcə yeni mərhələyə daxil olduğunun bariz nümunəsidir. Bu, tərəflərin yalnız siyasi məsələlərdə deyil, iqtisadiyyat, enerji, nəqliyyat, investisiya, humanitar əməkdaşlıq və təhlükəsizlik kimi istiqamətlərdə də uzunmüddətli və sistemli tərəfdaşlıq qurmaq niyyətini əks etdirir.

## İQTİSADİ-TİCARİ MÜNASİBƏTLƏRDƏ MÜSBƏT DİNAMİKA

Hazırda Azərbaycanda, xüsusilə qeyri-neft sektorunda fəaliyyət göstərən Qırğızıstan investisiyalı 97 kommersiya qurumu qeydiyyatdadır, onlardan 39-nun fəaliyyəti aktivdir. İndiyədək Azərbaycandan Qırğızıstana birbaşa investisiya axınlarının həcmi 68,8 milyon dollar təşkil edir. Qırğızıstandan isə Azərbaycana birbaşa investisiya 25,2 milyon dollardır və bu, əsasən qeyri-neft-qaz sektorunun payına düşür. Bu ilin yanvar-iyun aylarında Azərbaycan və Qırğızıstan arasında ticarət dövriyyəsi təxminən 29 milyon ABŞ dolları olub. Yarım ildə Azərbaycandan Qırğızıstana 25,5 milyon dollarlıq məhsul ixrac olunub, Qırğızıstandan ölkəmizə isə 3,4 milyon dollarlıq məhsul idxal edilib. Keçən il isə iki ölkə arasında ticarət dövriyyəsi 77,1 milyon dollardan çox olub. Qarşılıqlı investisiyaların artması həm iqtisadi əlaqələrin şaxələndirilməsinə, həm də özəl sektorun fəallığının yüksəlməsinə töhfə verir. Qırğız Respublikası ilə əməkdaşlıq bir sıra istiqamətlər, xüsusilə iqtisadi-ticarət, investisiya, nəqliyyat və energetika üzrə genişlənir. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığı dəstəkləmək məqsədilə yaradılmış Azərbaycan-Qırğız İnkişaf Fondu çərçivəsində tərəfdaşlığın inkişafına önəm verilir.

Azərbaycan və Qırğızıstanı yaxınlaşdıran əsas amillərdən biri də Avrasiyanın yeni nəqliyyat xəritəsində hər iki ölkənin artan roludur. Orta Dəhliz boyunca formalaşan yeni iqtisadi imkanlar Azərbaycan ilə Qırğızıstan arasında yükdaşımaların artırılması, tranzit potensialının genişləndirilməsi və Avrasiya məkanında qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi üçün əlverişli zəmin yaradır.

Beləliklə, dövlət başçısının Qırğızıstan səfəri tək ikitərəfli münasibətlərin inkişafı baxımından yox, həm də bütövlükdə Türk Dünyası çərçivəsində inteqrasiyanın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

# AZƏRBAYCAN-MƏRKƏZİ ASİYA ƏMƏKDAŞLIĞI DƏRİNLƏŞİR

Qırğızıstanda keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi Məşvərət Görüşünün sonunda Çolpon-Ata Bəyannaməsi imzalanıb. Sənəd gələcək qarşılıqlı əməkdaşlıq prioritetlərini müəyyənləşdirir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın çoxvektorlu xarici siyasət kursunda Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq xüsusi prioritet təşkil edir. Bu əməkdaşlığı şərtləndirən ən mühüm məqamlar son dövrlərdə beynəlxalq sistemdə yaşanan gərginliklər fonunda Orta Dəhliz arteriyasının əhəmiyyətinin ön plana çıxması, həmçinin region ölkələrinin əksəriyyəti ilə ortaq dil, din və soykök bağlılığı üzərində qurulmuş tarixi əlaqələrdir. Rəsmi Bakının yürütdüyü praqmatik əməkdaşlıq modeli bu gün Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığını yeni müstəviyə daşıyıb. Bu format özünün geosiyasi və geoiqtisadi əhəmiyyəti ilə yanaşı, bir çox güc mərkəzləri tərəfindən də təqdirlə qarşılanır.

### "AZƏRBAYCAN MƏŞVƏRƏT FORMATININ FƏAL ÜZVÜ OLACAQ"

Bu baxımdan iyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi Məşvərət Görüşü xüsusi əhəmiyyət kəsb edir. Məlum format və bütövlükdə regionla əməkdaşlığa rəsmi Bakının verdiyi əhəmiyyət Prezident İlham Əliyev tərəfindən Çolpon-Ata görüşündə bir daha vurğulanıb. Dövlət başçısı bildirib ki, Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Prezident qeyd edib ki, 2023-cü ilin əvvəlindən bu günə qədər o, Mərkəzi Asiyanın qardaş ölkələrinə, ümumilikdə 16 səfər edib, onun həmin ölkələrdən həmkarları isə 26 dəfə Azərbaycanda səfərdə olublar.

"Bu statistika münasibətlərin dinamikasından və yaxınlığından açıq şəkildə xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib", - deyə Prezident İlham Əliyev əlavə edib.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı inkişaf etdirəcək: "Sizi əmin etmək istəyirəm ki, Azərbaycan məşvərət formatının fəal üzvü olacaq və öz tərəfindən əməkdaşlığın daha da inkişaf etdirilməsi, ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşması üçün bütün səyləri göstərəcək".




## Prioritetləri müəyyənləşdirən mühüm sənəd

Xatırladaq ki, Məşvərət görüşünün sonunda Çolpon-Ata Bəyannaməsi imzalanıb. Bu sənəd Mərkəzi Asiya ölkələri ilə yanaşı, Azərbaycanın da ortaq siyasi iradəsini əks etdirir. Həmçinin sözügedən format çərçivəsində üzv ölkələrin gələcək qarşılıqlı əməkdaşlıq prioritetlərini müəyyənləşdirən mühüm sənəd kimi qəbul olunur. Məşvərət Görüşünə üzv ölkələrin tarixi, mədəni bağlılığına vurğu edilir. Bu isə o anlama gəlir ki, Mərkəzi Asiya-Azərbaycan əməkdaşlıq formatını tək iqtisadi və siyasi maraqlar yox, həm də tarixi-mədəni yaxınlıq, bağlılıq birləşdirir. Sənəddə suveren bərabərlik, dövlətlərin müstəqilliyinə hörmət, ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı və daxili işlərə qarışmamaq prinsiplərinə sadiqlik kimi beynəlxalq hüququn fundamental prinsipləri də qeyd olunur.



### REGİONAL ƏMƏKDAŞLIQ XALQLARIN FUNDAMENTAL MARAQLARINA CAVAB VERİR

Məşvərət Görüşünün yekunu olaraq dəyərləndirilən sənəd mürəkkəb beynəlxalq şəraitdə yaranan çağırışlar və onun yarada biləcəyi təhdidlərə qarşı birgə əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını ön plana çıxarır. Belə ki, regional əməkdaşlığın xalqların fundamental maraqlarına cavab verdiyi bildirilir. Yeni tərəflər iqtisadi inkişafın, təhlükəsizliyin və sosial rifahın təmin edilməsini yalnız birgə fəaliyyət nəticəsində mümkün hesab edirlər. Bu baxımdan Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakının xüsusi təqdir olunması, ölkəmizin regionun ayrılmaz tərəfdaşı kimi qəbul edilməsi hər iki tərəfin milli maraqlarına xidmət edən mühüm məqamdır.

## Formatın inkişafında yeni mərhələnin rəmzi

Bu amil üzv ölkələrin dövlət başçıları tərəfindən xüsusi olaraq vurğulanır. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirib ki, Azərbaycanın Məşvərət görüşlərinə tamhüquqlu iştirakçı qismində qoşulması formatın müsbət inkişafında yeni mərhələnin rəmzidir. "Birgə səylər sayəsində siyasi dialoqun daha da dərinləşməsi, investisiyalar, energetika, sənaye, vahid nəqliyyat-logistika sisteminin formalaşmasına şərait yaradılır", - Qazaxıstan Prezidenti vurğulayıb.

### STRATEJİ ƏHƏMİYYƏT QAZANAN DİALOQ PLATFORMALARINDAN BİRİ

Qeyd edək ki, Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının Məşvərət Görüşü son illərdə regionda formalaşan yeni geosiyasi reallıqlar fonunda strateji əhəmiyyət qazanan dialoq platformalarından biri kimi dəyərləndirilir. Sirr deyil ki, son illərdə Mərkəzi Asiyanın, Azərbaycanın da yerləşdiyi coğrafi məkan uğrunda geosiyasi rəqabət daha kəskin hal almaqdadır. Məhz bu amil Məşvərət Görüşü formatının əhəmiyyətini daha da artırır. Artıq mövcud çağırışlar və beynəlxalq konyunktura fonunda formalaşmaqda olan birgə maraqlar Azərbaycan və Mərkəzi Asiyanı coğrafi, siyasi, iqtisadi baxımdan vahid olaraq birləşdirir. "C6" olaraq tanınan Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının Məşvərət Görüşü platforması isə bu vahidin əyani olaraq təsbitidir. Xatırladaq ki, Azərbaycanın prosesə cəlb olunması mərhələli şəkildə baş verib. 2023-cü ildə Düşənbədə keçirilən V Məşvərət Görüşündə Prezident İlham Əliyev fəxri qonaq qismində iştirak edib. Məhz həmin görüşdən sonra sözügedən istiqamətdə proseslər yeni dinamika qazanıb. 2025-ci il noyabrın 16-da Daşkənddə keçirilən VII Məşvərət Görüşündə Azərbaycanın tamhüquqlu iştirakına dair qərar qəbul edilib. Məhz bu qərar Azərbaycanın beynəlxalq logistika, bağlantılar sahəsində artan strateji əhəmiyyətinin qəbulu, həmçinin ölkəmizin beynəlxalq səviyyədə güclənən rolunun dəyərləndirilməsinin göstəricisi oldu. Bu gün Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığı Şərqdən Qərbə, Şimaldan Cənuba qədər böyük coğrafi məkanda cərəyan edən proseslərin əsas daşıyıcı qüvvəsinə çevrilib.

# İRAN NÖVBƏTİ DƏFƏ SİNİFDƏ QALDI




**Molla rejiminin reallıqları dərk etməyən qanadlarının Azərbaycanı hədəf almasına cavabımız özünü çox gecikdirmir. Son illərdə müşahidə olunan proseslər bunun əyani sübutudur.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

İran tərəfindən növbəti dəfə Azərbaycana qarşı qeyri-dost münasibətin şahidi olduq. İranın Kəşfiyyat Nazirliyi Azərbaycan mediasına qarşı qərəzli mövqe nümayiş etdirərək Azərbaycan Televiziyasını (AzTV) "düşmən media qurumları" siyahısına daxil etməklə növbəti dəfə ikitərəfli münasibətlərə zərbə vuran addım atdı.

### TEHRANIN QEYRİ-SƏMİMİLİYİNİN DAHA BİR GÖSTƏRİCİSİ

Əslində son bir il ərzində İranın düşdüyü çətin geosiyasi və hərbi böhran Tehran üçün qonşularına münasibətdə səmimiliyini göstərmək üçün bir imtahan idi. Bu prosesdə İran tərəfindən Azərbaycanla bağlı çoxsaylı qeyri-adekvat addımların sərgilənməsi Tehranın məlum imtahanda sinifdə qaldığını söyləməyə ciddi əsaslar yaradır. İstər suveren ərazilərimizə qarşı həyata keçirilən dron hücumları, istərsə də İran mediasında, xüsusilə də "Səhər" telekanalı və "Mehr" agentliyində, həmçinin SEPAH və ETAALAT-ın kurasiyasında olan digər informasiya qurumlarında ardıcıl şəkildə Azərbaycan əleyhinə həqiqətdən uzaq xüsusi materialların silsilə şəkildə yayımlanması İranın qarşılıqlı münasibətlərdə qeyri-səmimiliyinin daha bir göstəricisidir.

### VƏTƏN MÜHARİBƏSİNDƏN BAŞLAYAN TƏXRİBAT

Əslində Tehran tərəfinin məlum addımı o qədər də təəccüb doğurmamalıdır. Müqayisə üçün qeyd edək ki, 44 günlük Vətən müharibəsinin gedişində, daha sonra isə Ermənistanla ikitərəfli sülh danışıqlarında İran mediası daim Azərbaycanı hədəf alan, milli maraqlarımızı, suverenliyimizi və ərazi bütövlümüzü təhdid edən birtərəfli yanaşma sərgiləyib. Buraya SEPAH-ın sərhədlərimizdə qarşı tərəf üçün heç bir təhdid olmadığı, əksinə, qarşılıqlı tərəfdaşlığın genişləndirilməsinə dair çağırışların səsləndirildiyi bir dövrdə hərbi təlimlər keçirməsi, Naxçıvanla quru əlaqəsinin bərpasına dair Azərbaycanın qalib dövlət olaraq haqlı tələbini özünün "qırmızı xətti" adlandırması kimi bəyanatları da əlavə edə bilərik.

### AZƏRBAYCAN MEDİASININ PEŞƏKARLIĞI

İran mediasından fərqli olaraq, Azərbaycanın əksər media qurumları ABŞ-İsrail-İran qarşıdurmasının davam etdiyi müddətdə özünün peşəkarlığı və bitərəfliyi ilə diqqət çəkdi. Əsas missiyasının xəbər vermək və hər hansı tərəfi hədəf almamaq olan Azərbaycan mediasının təmsilçiləri iranlı "həmkarlar"ından fərqli olaraq əsl peşəkarlıq nümayiş etdirdilər. Digər tərəfdən, Azərbaycan dövləti qonşu ölkələrin media subyektlərinin ölkəmizdə şəffaf və bərabər səviyyəli yanaşma prinsipləri ilə fəaliyyətinə daim şərait yaradıb. Ölkəmizdə təşkil olunan bir çox qlobal forumlarda İran media nümayəndələri də iştirak edib. Çox təəssüf ki, İran rəhbərliyinin bu münasibətə qeyri-adekvat yanaşmasını müşahidə etməkdəyik.

## TEHRANIN QƏRARINA BAKININ ADEKVAT CAVABI

Lakin Tehranın, molla rejiminin unutduğu bir reallıq var ki, Azərbaycan artıq kimlərinsə diktə və hədə ilə danışa biləcəyi, təzyiq göstərərək istədiyini ala biləcəyi ölkə deyil. Bu gün ölkəmiz özünün ən qüdrətli dövrünü yaşayır və bütün müstəvilərdə əksər ölkələrdən potensialı, gücü ilə xeyli öndədir. Tehranın budəfəki təxribatına da rəsmi Bakının adekvat cavabı özünü çox gözlətmədi.

Medianın İnkişafı Agentliyi İran İslam Respublikasının Kəşfiyyat Nazirliyi tərəfindən bəzi xarici media subyektlərinin, o cümlədən AzTV-nin "düşmən media qurumları" siyahısına daxil edilməsi və həmin qurumlarla əməkdaşlıq edən şəxslərin cinayət məsuliyyəti ilə hədələnməsi ilə bağlı bəyanat yayıb.

"İran İslam Respublikasının Kəşfiyyat Nazirliyi tərəfindən bəzi xarici media subyektləri, o cümlədən Azərbaycan Respublikasının dövlət televiziya kanalı olan AzTV-nin "düşmən media qurumları" siyahısına daxil edilməsi və həmin qurumlarla əməkdaşlıq edən şəxslərin cinayət məsuliyyəti ilə hədələnməsi təəccüb doğurur", - bəyanatda deyilir.

Qarşı tərəfə Azərbaycanın da adekvat cavab vermək hüququnun olduğu xatırladılır və bu mövqe açıq şəkildə ortaya qoyulur. "Heç şübhəsiz ki, Azərbaycan Respublikası jurnalistlərin peşə fəaliyyətinin müdafiəsinə sadiq olmaqla yanaşı, qarşılıqlılıq prinsipinin tətbiqini də təmin edir. Belə ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsinə əsasən, Media Reyestrinə daxil edilmiş jurnalistlərin peşə fəaliyyətinin həyata keçirilməsinə digər dövlətlər tərəfindən xüsusi məhdudiyyətlər qoyulduqda həmin məhdudiyyətləri tətbiq etmiş dövlətin jurnalistlərinə Azərbaycan Respublikasında da eyni məhdudiyyətlər qoyula bilər. Müvafiq maddənin tələbləri və qarşılıqlılıq prinsipi nəzərə alınaraq, Azərbaycan Respublikasının milli maraqlarına zidd fəaliyyət göstərən, ölkəmizin suverenliyi, konstitusiya quruluşu, ərazi bütövlüyü və milli təhlükəsizliyi əleyhinə təbliğat aparan media subyektlərinin - "Səhər" telekanalı və "Mehr" xəbər agentliyinin, həmçinin bu subyektlərin nümayəndələrinin Azərbaycan Respublikası ərazisində fəaliyyəti qanunsuz hesab edilir", - deyə Medianın İnkişafı Agentliyinin bəyanatında bildirilir.

## BU DƏFƏ DƏ İSTİSNA DEYİL

Qeyd edək ki, Azərbaycan İrana münasibətdə daim özünün sabit və proqnozlaşdırılan, mehriban qonşuluq prinsiplərinin əsas tutulduğu davamlı siyasəti ilə seçilib. İkitərəfli münasibətlərdə rəsmi Bakı İran rejiminin siyasi qanadına yanaşması daim müsbət olub. Biz bunu ali səviyyədə aparılan danışıqlarda, həyata keçirilən rəsmi səfərlərdə səsləndirilən bəyanatlarda da müşahidə etmişik. Lakin molla rejiminin digər reallıqları dərk etməyən qanadlarının Azərbaycanı hədəf almasına da cavabımız özünü çox gecikdirməyib. Son illərdə müşahidə olunan proseslər bunun əyani sübutudur. Bu dəfə də İran ən çətin məqamında humanist yanaşma sərgiləyən, dost əlini uzadan Azərbaycana qarşı səhv addımlarını davam etdirir. Lakin son illərin təcrübəsinə əsaslanaraq deyə bilərik ki, bu yanlışlardan itirən tərəf daha çox İran olub. Bu dəfə də istisna deyil.

# ABŞ-SƏUDİYYƏ NÜVƏ SAZİŞİNİN PƏRDƏARXASI

ABŞ-Səudiyyə nüvə sazişinin Yaxın Şərqdə nüvə silahlanması yarışını gücləndirəcəyindən ehtiyat edilir. Narahatlıq doğuran fakt odur ki, saziş İranın nüvə silahı əldə etməsinin qarşısını almaq üçün aparılan müharibənin qızğın vaxtında imzalanıb.



AZƏR NURİYEV

ABŞ və Səudiyyə Ərəbistanı arasında nüvə əməkdaşlığı ilə bağlı imzalanan saziş, onun mahiyyəti son vaxtlar ən çox müzakirə olunan geosiyasi məsələlər sırasındadır. Bu, təkcə iki ölkə arasındakı strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoyması deyil, həm də regionun təhlükəsizlik arxitekturasına və nüvə balansına təsir göstərə biləcək mühüm addım kimi qiymətləndirilir. Atom enerjisinin dinc məqsədlərlə istifadəsini nəzərdə tutan saziş ABŞ energetika naziri Kris Rayt və Səudiyyə Ərəbistanının energetika naziri şahzadə Əbdüləziz bin Salman tərəfindən imzalanıb. İmzalandıqdan bir neçə gün sonra ABŞ Prezidenti Donald Tramp sazişə yeni şərt əlavə edərək, onun həyata keçirilməsini Səudiyyə Ərəbistanının İbrahim sazişlərinə qoşulmasından və İsraillə münasibətləri normallaşdırmasından asılı vəziyyətə gətirib.

### ƏR-RİYADIN STRATEJİ HƏDƏFİ

Səudiyyə iqtisadiyyatını neftdən asılılıqdan çıxarmağı hədəfləyir və bu çərçivədə "Vision 2030" proqramı hazırlanıb. Bununla da enerji mənbələrinin şaxələndirilməsinə çalışılır. Bu strategiyada nüvə enerjisinin inkişafı da mühüm yer tutur. Ər-Riyad bildirir ki, məqsəd elektrik enerjisi istehsalını artırmaq, daxili neft istehlakını azaltmaq və ölkənin enerji təhlükəsizliyini möhkəmləndirməkdir. ABŞ isə Səudiyyə Ərəbistanının nüvə proqramının beynəlxalq standartlara uyğun şəkildə inkişaf etdirilməsində iştirak etməyə çalışır. Vaşinqton hesab edir ki, bu əməkdaşlıq ABŞ şirkətlərinin nüvə texnologiyaları bazarında mövqeyini gücləndirməklə yanaşı, Çinin və Rusiyanın regionda artan təsirini də məhdudlaşdıra bilər.



## İRAN VƏ İSRAİL PROSESLƏRİ DİQQƏTLƏ İZLƏYİR

Nüvə sazişi ətrafında əsas narahatlıq uranın zənginləşdirilməsidir. ABŞ uzun müddətdir ki, Səudiyyə Ərəbistanının öz ərazisində uranı zənginləşdirməsinə ehtiyatla yanaşır. Vaşinqton hesab edir ki, bu imkan gələcəkdə hərbi məqsədlər üçün istifadə oluna bilər. Ər-Riyad isə nüvə proqramının yalnız dinc məqsədlər daşıdığını vurğulayır.

Sazişin regional geosiyasi təsirləri də genişdir. İran uzun illərdir nüvə proqramı ilə bağlı beynəlxalq mübahisələrin mərkəzindədir. Səudiyyə Ərəbistanının mülki nüvə imkanlarını genişləndirməsi Tehran tərəfindən diqqətlə izlənilir. Ekspertlər hesab edirlər ki, regionun iki əsas rəqibi arasında strateji rəqabətin yeni mərhələyə keçməsi ehtimalı mövcuddur. Digər tərəfdən, İsrail də bu prosesə xüsusi həssaslıqla yanaşır. İsrail ənənəvi olaraq Yaxın Şərqdə nüvə silahlarının yayılmasına qarşı sərt mövqe tutur.

### ƏRƏB NÜVƏ BOMBASININ YARADILMASINDA İLK ADDIM

İstənilən halda ABŞ-Səudiyyə Ərəbistanı müqaviləsi ərəb nüvə bombasının yaradılmasında ilk addım kimi qiymətləndirilir. Yaxın Şərq Tədqiqatları Mərkəzinin direktoru İqor Semivolos hesab edir ki, əlavə enerji mənbələri Səudiyyə Ərəbistanına həqiqətən lazımdır. Ölkənin əhalisi tədricən artır, turist sayında pozitiv dinamika var, sənaye genişlənir, binaların kondisionerləşdirilməsi və dəniz suyunun duzsuzlaşdırılması daha çox elektrik enerjisi tələb edir. Atom elektrik stansiyaları ölkəyə sabit elektrik enerjisi mənbəyi verəcək, ixrac üçün daha çox yanacaq saxlamağa imkan yaradacaq və "Vision 2030" dövlət proqramı çərçivəsində iqtisadiyyatın yenidən qurulmasını dəstəkləyəcək. Səudiyyə hakimiyyəti təkcə reaktorları deyil, həm də mütəxəssislərin hazırlanmasını, uran hasilatını və bununla bağlı sənaye proseslərini inkişaf etdirməyi planlaşdırır.



## SƏUDİYYƏ-ABŞ NÜVƏ SAZİŞİ NƏDİR?

İmzalanan saziş onlarla milyard dollar dəyərində qiymətləndirilir və 30 illikdir. Sənəddə ABŞ-nin Ər-Riyada nüvə texnologiyaları və bilikləri ötürəcəyi qeyd olunur. Eyni zamanda, ABŞ firmaları krallığın nüvə infrastrukturunun yaradılmasında əsas mövqe tutacaq. Saziş Çin və Rusiya kimi strateji rəqiblərin Səudiyyə iqtisadiyyatında təsirinin güclənməsinin qarşısının alınmasına yönəlib. Sazişin əsas benefisiarının bir giqavattdan çox elektrik enerjisi istehsal edə bilən nüvə reaktorlarına malik ABŞ şirkəti "Westinghouse Electric Company" olacağı gözlənilir. Bəs saziş Səudiyyə Ərəbistanında uranın zənginləşdirilməsini nəzərdə tuturmu? Bu məsələ saziş ətrafındakı müzakirələrdə mərkəzi yer tutub və ziddiyyətlərə səbəb olub. Amerika rəsmilərinin bəyanatlarına əsaslanan KİV xəbərlərinə görə, saziş Səudiyyə Ərəbistanı ərazisində uranın zənginləşdirilməsi zavodunun tikilməsinə yol açır. Lakin bu, avtomatik hüquq deyil. Tərəflər belə bir obyektin zəruriliyini müəyyən edəcək iki illik birgə tədqiqatın aparılması barədə razılığa gəliblər.

### KONQRES SAZİŞİ BLOKLAYACAQ?

ABŞ Konqresi sazişin təqdim edilməsindən sonrakı 90 gün ərzində onu nəzərdən keçirəcək. Gözlənilir ki, saziş həm demokratlar, həm də bəzi respublikaçılar tərəfindən etirazla qarşılaşacaq. Lakin Respublikaçılar Partiyasının Konqresin hər iki palatasını nəzarətdə saxladığını nəzərə alsaq, saziş əleyhdarlarının lazımi səs çoxluğunu toplaması son dərəcə çətin görünür. Bununla belə, Trampın normallaşma ilə bağlı yeni şərtini nəzərə alsaq, sazişin ümumiyyətlə Konqresə təqdim edilib-edilməyəcəyi aydın deyil. Saziş Yaxın Şərqdə nüvə silahlanması yarışını təhrik edə bilər. Narahatlıq doğuran digər fakt odur ki, saziş İranın nüvə silahı əldə etməsinin qarşısını almaq üçün aparılan müharibənin qızğın vaxtında imzalanıb. Ər-Riyada uranı zənginləşdirməyə icazə verilməsi İranı öz nüvə proqramını daha da inkişaf etdirməyə təşviq edə bilər. Yüksək regional gərginlik şəraitində nüvə obyektlərinin təhlükəsizliyi ilə bağlı da narahatlıqlar mövcuddur. Sazişin gələcək taleyi tərəflərin təhlükəsizlik təminatları, beynəlxalq nəzarət mexanizmləri və regiondakı siyasi dinamika ilə sıx bağlı olacaq.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# AZƏRBAYCAN TRANZİT YARIŞINDA ÖNƏ ÇIXIR

ADY-nin kükürd daşımalarında qeydə alınan 31%-lik artım təkcə yük dövriyyəsinin yüksəlməsi deyil, Azərbaycanın Orta Dəhlizdə strateji mövqeyinin güclənməsinin, tranzit gəlirlərinin və qeyri-neft logistika sektorunda yaranan yeni iqtisadi imkanların göstəricisi kimi qiymətləndirilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Qlobal təchizat zəncirində marşrutların yenidən formalaşdığı bir dövrdə Azərbaycan beynəlxalq tranzit qovşağı kimi mövqeyini sürətlə möhkəmləndirir. Bunun ən bariz göstəricilərindən biri 2026-cı ilin ilk yarısında dəmir yolu daşımalarında qeydə alınan dinamikadır. Rəsmi rəqəmlər vəziyyətin miqyasını aydın şəkildə ortaya qoyur. Yanvar-iyun aylarında "Azərbaycan Dəmir Yolları" QSC (ADY) tərəfindən 484 min tona yaxın kükürd və əlaqəli mallar daşınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 31%-dən çox artım deməkdir. Əsas sıçrayış isə məhz beynəlxalq əhəmiyyət daşıyan tranzit rejimində qeydə alınıb. Belə ki, bu rejimdə daşınmış kükürd yükünün həcmi 30%-dən çox artaraq 369 min tondan 483 min tona yüksəlib. Bəs qısa müddət ərzində qeydə alınan bu artım nə ilə əlaqədardır?

### "GEOSİYASİ RİSKLƏR YÜK SAHİBLƏRİNİ XƏZƏR MARŞRUTUNA YÖNƏLDİB"

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirlinin sözlərinə görə, 2026-cı ilin ilk yarısında qeydə alınan 31 faizlik artım sadəcə statistik rəqəm deyil: "Bu, qlobal və regional amillərin uğurlu sintezinin nəticəsidir. Qlobal təchizat zəncirindəki struktur dəyişiklikləri və ənənəvi nəqliyyat dəhlizlərində yaranan geosiyasi risklər yük sahiblərini daha etibarlı alternativə - Xəzər marşrutuna (Orta Dəhliz) yönəldib. Bu xarici amillərlə yanaşı, Azərbaycanın son illərdə dəmir yolu və liman infrastrukturuna yatırdığı strateji investisiyalar, logistika proseslərinin təkmilləşdirilməsi və tranzit portfelinə xam kükürd kimi yeni yüklərin əlavə edilməsi mövcud artımın fundamental bazasını təşkil edir. Kükürd daşımalarındakı bu sıçrayış ölkənin tranzit gəlirlərinin dayanıqlı artımını təmin etməklə yanaşı, bütöv bir logistika ekosistemini hərəkətə gətirir. Yük həcmlərinin çoxalması təkcə dəmir yolu gəlirlərini deyil, liman əməliyyatlarına, anbarlaşdırma, sığorta və gömrük xidmətlərinə olan tələbatı kəskin şəkildə artırır. Nəticə etibarilə, nəqliyyat-logistika sektorunda formalaşan əlavə iqtisadi dəyər qeyri-neft sektorunun inkişafını sürətləndirir və Azərbaycanın regional tranzit mərkəzi kimi strateji mövqeyini daha da möhkəmləndirir".

### "ORTA DƏHLİZ ÜZRƏ YÜK AXINI HAZIRKI SƏVİYYƏDƏ QALARSA..."

A.Nəsirlinin fikrincə, qlobal logistika xəritəsində Azərbaycanın ən böyük rəqabət üstünlüyü onun Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsidir: "Müasir dəmir yolu infrastrukturu və Bakı limanı ilə sıx inteqrasiya olunmuş logistika sistemi bu unikal coğrafi qovşaq statusunu real iqtisadi dividendlərə çevirir və beynəlxalq ekspeditorlara daha çevik, təhlükəsiz daşınma marşrutları təklif edir. Orta Dəhliz üzrə yük axını hazırkı səviyyədə qalarsa və beynəlxalq bazarlarda kimya sənayesi məhsullarına tələbat sabit olarsa, bu müsbət artım dinamikasının 2026-cı ilin ikinci yarısında da davam edəcəyi gözlənilir. Lakin qlobal ticarətdəki qəfil dəyişikliklər və enerji bazarındakı dalğalanmalar daim diqqət mərkəzində saxlanılmalıdır. Azərbaycanın beynəlxalq tranzit bazarında rəqabət qabiliyyətini daha da artırmaq üçün gələcək hədəflər bəllidir. Dəmir yolu və liman infrastrukturunun ötürücülük qabiliyyətinin genişləndirilməsi, rəqəmsal logistika həllərinin tətbiqi, gömrük prosedurlarının sadələşdirilməsi və multimodal daşımaların inkişaf etdirilməsi mütləqdir".




### AZƏRBAYCANIN KÜKÜRD POTENSİALI

İqtisadçı Rauf Qarayev isə bildirdi ki, kükürd daşımalarındakı 31%-lik artım fonunda Azərbaycanın özünün də bu xammal üzrə daxili potensialını qeyd etməliyik: "Ölkəmizdə kükürd ehtiyatları əsasən filiz (kükürd kolçedanı) yataqları şəklində Kiçik Qafqazda - xüsusən Gədəbəy (mis-kolçedan) və Göygöl (Çıraqdərə) rayonlarında cəmləşib. Sənaye miqyasında isə bu xammal daha çox neftin emalı prosesində əldə edilir. Daxili istehsal ilk növbədə yerli tələbatın ödənilməsinə - kimya sənayesində kükürd turşusunun alınmasına, kənd təsərrüfatı üçün gübrələrin hazırlanmasına, eləcə də tibb və kosmetologiya sahələrində müalicəvi məlhəmlərin istehsalına yönəldilir".

## "LOGİSTİK İMKANLAR KƏSKİN MƏHDUDLAŞIB"

İqtisadçının fikrincə, Azərbaycanın əsl iqtisadi qazancı qlobal tranzit rolundadır. Daxili ehtiyatlarla yanaşı, ölkəmiz Mərkəzi Asiyadan (əsasən Türkmənistan və Qazaxıstan) gələn kükürd və digər kimyəvi malların dünya bazarlarına çıxarılmasında əsas qapı rolunu oynayır: "Bakı yaxınlığındakı terminallardan keçən bu yüklər dəmir yolları və Xəzər limanları vasitəsilə Gürcüstan və Qara dəniz limanlarına çatdırılır. Mövcud qlobal gərginliklər ənənəvi tranzit koridorlarının daralmasına səbəb olduqca, Azərbaycanın təhlükəsizlik amili ən böyük rəqabət üstünlüyünə çevrilir. Rusiya-Ukrayna müharibəsi fonunda Rusiya infrastrukturuna edilən hücumlar və Yaxın Şərqdəki gərginliklər qonşu dövlətlərin logistik imkanlarını kəskin məhdudlaşdırıb. Belə bir mürəkkəb mənzərədə tranzit axınının şaxələnməsi o həddə çatıb ki, hətta bəzi Rusiya mallarının Ermənistana daşınması belə ən etibarlı marşrut olaraq Azərbaycan ərazisindən keçir. 44 günlük Vətən müharibəsindən sonra yaranan yeni reallıqlar logistik infrastrukturun inkişafına yeni nəfəs verib. Yaxın gələcəkdə Ermənistanla yekun sülh müqaviləsinin imzalanması və Naxçıvan üzərindən yeni quru və dəmiryolu xətlərinin tam açılması ölkəmizin tranzit potensialını bir neçə dəfə artıracaq. Mövcud geosiyasi vəziyyət dəyişməz qalarsa və regional stabillik qorunarsa, ilin ikinci yarısında təkcə kükürd deyil, ümumi tranzit daşımalarından əldə edilən gəlirlərdə müsbət artım dinamikasının daha da güclənəcəyi şübhəsizdir".



# ƏRƏB TURİSTLƏRİ QAYTARMAQ HƏDƏFİ

**Azərbaycan Turizm Bürosu Yaxın Şərq ölkələrindən olan turistlərin cəlb edilməsi üçün avia və turizm şirkətləri ilə danışıqlara başlayıb. Yaxın Şərq bazarı həm coğrafi yaxınlığı, həm də yüksək xərcləmə qabiliyyətinə malik turist profili ilə strateji əhəmiyyət daşıyır.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bir vaxtlar Azərbaycanın turizm sektorunun əsas hərəkətverici qüvvələrindən hesab olunan Yaxın Şərq bazarı yenidən diqqət mərkəzinə qayıdır. Azərbaycan Turizm Bürosu bu regiondan turist axınının artırılması üçün avia və turizm şirkətləri ilə danışıqlara başlayıb.

Azərbaycan Turizm Bürosunun (ATB) İdarə Heyətinin sədr müavini Rəşad Əliyev bildirib ki, Yaxın Şərqdən turist axınının artırılması üçün işlər aparılır.

Maraqlıdır, atılan addımlar ölkəyə gələn turist sayını artırmaq, ərəb turistləri yenidən cəlb etmək üçün kifayət edəcəkmi, yoxsa bu istiqamətdə əlavə addımlar da atılmalıdır?

### "HƏDƏF BAZARLARDA DAVAMLI REKLAM KAMPANİYALARI APARILMALIDIR"

Turizmçi Rəhman Quliyevin sözlərinə görə, Yaxın Şərq bazarı Azərbaycan üçün həm coğrafi yaxınlığı, həm də yüksək xərcləmə qabiliyyətinə malik turist profili ilə strateji əhəmiyyət daşıyır: "Körfəz ölkələrindən gələn turistlər adətən ailəvi səyahət edir, hotellərdə daha uzun müddət qalır və xidmət sektoruna daha çox gəlir qazandırırlar. Son illərdə qlobal turizm bazarında rəqabət artdığı üçün Azərbaycan da ənənəvi və gəlirli bazarlardakı mövqeyini yenidən gücləndirməyə çalışır. Eyni zamanda, yay aylarında Yaxın Şərq ölkələrində isti hava şəraiti Azərbaycanın sərin iqlimini onlar üçün cəlbedici alternativə çevirir. Buna görə də bu bazarın yenidən aktivləşdirilməsi həm turizm gəlirlərinin, həm də ölkəyə gələn xarici turist sayının artırılması baxımından məntiqli addım hesab oluna bilər".

R.Quliyevin sözlərinə görə, turist axınının azalmasına təsir edən əsas amillərdən biri geosiyasi vəziyyət və coğrafiyası genişlənən iqtisadi böhrandır. Digər tərəfdən, bir sıra istiqamətlər üzrə aviareyslərin sayının azalması və bilet qiymətlərinin bahalaşması da səyahət qərarlarına mənfi təsir göstərib. Turizmçinin fikrincə, aviaşirkətlər və turizm operatorları ilə əməkdaşlıq turist axınının artırılması üçün vacib vasitədir, lakin bununla yanaşı, hədəf bazarlarda davamlı reklam kampaniyaları aparılmalı, rəqəmsal platformalarda Azərbaycanın turizm potensialı daha effektiv tanıdılmalıdır: "Yeni turizm məhsullarının yaradılması da prioritet olmalıdır. Vizaların əlçatanlığı, birbaşa uçuşların artırılması və mövsümi kampaniyaların təşkili də qərarvermə prosesinə ciddi təsir edən amillərdir. Yalnız kompleks yanaşma tətbiq olunarsa, körfəz ölkələri bazarında Azərbaycanın əvvəlki mövqeyini bərpa etməsi və turist sayını davamlı şəkildə artırması mümkün olacaq".




## "YAXIN ŞƏRQ BAZARINA FOKUSLANMAQ MƏNTİQLİ ADDIMDIR"

Turizmçi Telman Hacıyevin fikrincə, qeyri-neft sektorunun, xüsusilə də turizmin iqtisadiyyatda payını daha da artırmaq lazımdır. Bu baxımdan, Yaxın Şərq bazarı bizim üçün həm yaxın, həm də yüksək xərcləmə potensialına malik bazardır: "Bundan əlavə, ölkədə turizmi inkişaf etdirəcək yeni layihələr - azad olunmuş Qarabağ ərazilərinin mərhələli şəkildə turizmə açılması, Bakıya çox yaxın yerləşən və xüsusilə yay mövsümündə böyük maraq doğuran "Sea Breeze" kimi layihələrin genişlənməsi, eləcə də yaxın illərdə kazino fəaliyyətinin başlaması Azərbaycanın regionda daha cəlbedici turizm istiqamətinə çevrilməsi məqsədinə xidmət edir. Belə olan halda, bu məhsulları satmaq üçün yenidən Yaxın Şərq bazarına fokuslanmaq məntiqli addımdır".



Rəhman Quliyev

T.Hacıyev son illərdə Yaxın Şərq bazarından Azərbaycana gələnlərin sayının azalmasını turizm bazarında rəqabətin artması, Türkiyə, Gürcüstan və digər ölkələrin Yaxın Şərq turistləri üçün çox aktiv şəkildə yeni imkanlar və məhsullar təqdim etməsi ilə əlaqələndirir: "Digər tərəfdən, birbaşa uçuşların sayı və əlçatanlığı da turist qərarlarına təsir edən amillərdəndir. Son aylarda regionda baş verən geosiyasi gərginliklərin də öz təsiri var".



Telman Hacıyev

### XİDMƏT KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ DƏ EHTİYAC VAR

Turizmçi Günel Şıxıyeva bildirir ki, pandemiyadan sonra və xüsusilə son geosiyasi proseslər fonunda Yaxın Şərqdən Azərbaycana turist axınında azalma baş verib: "Yaxın Şərq bazarı həm coğrafi yaxınlığı, həm də yüksək alıcılıq qabiliyyəti ilə seçilir. Körfəz ölkələrindən gələn turistlər adətən ailəvi səyahət edir, beşulduzlu hotellərdə qalır, alış-veriş, restoran və əyləncəyə daha çox vəsait xərcləyirlər. Buna görə də bir turistdən əldə olunan iqtisadi gəlir bir çox digər bazarlarla müqayisədə daha yüksək olur". G.Şıxıyeva hesab edir ki, son illər Yaxın Şərqdə baş verən münaqişələr və regiondakı qeyri-sabitlik insanların səyahət qərarlarına birbaşa təsir edib: "Aviabiletlərin bahalaşması və bəzi istiqamətlər üzrə uçuş tezliyinin azalması Azərbaycana səfərləri əvvəlki illərlə müqayisədə daha bahalı edib. Həmçinin rəqabət xeyli güclənib: Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər və Küveyt vətəndaşları üçün Türkiyə, Gürcüstan, Bosniya, Monteneqro, Malayziya və Avropanın bəzi ölkələri daha aqressiv marketinq aparır, daha sərfəli paketlər və yeni marşrutlar təqdim edirlər. Nəhayət, Azərbaycanın tanıtım kampaniyalarının davamlılığı, yeni turizm məhsullarının yaradılması və xidmət keyfiyyəti də rəqabət qabiliyyətinə təsir edən amillər sırasındadır". Turizmçi hesab edir ki, aviaşirkətlər və turizm şirkətləri ilə əməkdaşlıq vacib addımdır, lakin tək bununla uğur qazanmaq mümkün olmayacaq: "Ərəb turistləri qaytarmaq üçün kompleks tədbirlər görülməlidir. Bunlara Yaxın Şərq ölkələrində intensiv reklam kampaniyalarının aparılması, tanınmış influenser və media nümayəndələrinin Azərbaycana dəvət olunması, ərəbdilli xidmətlərin genişləndirilməsi, ailə və halal turizm məhsullarının inkişaf etdirilməsi, mövsümdənkənar dövrlər üçün xüsusi kampaniyalar və xidmət keyfiyyətinin yüksəldilməsi daxildir".



Günel Şıxıyeva

SƏHİYYƏ Kaspi 1 AVQUST ŞƏNBƏ 2026 9

MƏQSƏD BEYNƏLXALQ TƏCRÜBƏNİN UĞURLU ELEMENTLƏRİNİ YERLİ ŞƏRAİTƏ UYĞUNLAŞDIRARAQ SƏMƏRƏLİ DƏRMAN TƏMİNATI SİSTEMİNİN YARADILMASIDIR

# XƏSTƏLƏR DƏRMANLARI PULSUZ NƏ VAXT ALACAQLAR?

HAZIRLADI

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi hazırlıq prosesinin davam etdiyini bildirir. Hazırlıq tədbirlərinin məqsədi vətəndaşlar üçün şəffaf, dayanıqlı və səmərəli ambulator dərman təminatı sisteminin qurulmasını təmin etməkdir.**

Ambulator şəraitdə resept əsasında təyin olunan dərman vasitələrinin icbari tibbi sığorta hesabına təmin ediləcəyi xəbəri cəmiyyət tərəfindən müsbət qarşılandı. Çünki bu yeniliyin vətəndaşların dərman xərclərini azaldacağı və müalicəyə əlçatanlığı artıracağı gözlənilirdi. Lakin indiyədək bu mexanizmin praktik tətbiqi geniş şəkildə hiss olunmur və vətəndaşlar onun nə vaxt tam şəkildə həyata keçiriləcəyini səbirsizliklə gözləyirlər.

Mütəxəssislərin fikrincə, xüsusilə xroniki, onkoloji, kardioloji xəstəliklər zamanı dərman xərclərinin qarşılanması həm müalicənin davamlılığının təmin edilməsi, həm də vətəndaşların maliyyə yükünün azaldılması baxımından mühüm əhəmiyyət daşıya bilər.

Hazırda isə bu prosesin hansı mərhələdə olduğu, hansı dərmanların paketə daxil ediləcəyi və tətbiq mexanizminin necə qurulacağı gündəmdə olan əsas məsələlərdən biri kimi qalmaqdadır.

İctimaiyyəti narahat edən məsələyə aydınlıq gətirməyə çalışarkən hələ prosesin müəyyən qədər vaxt aparacağını öyrəndik.

## İNSTİTUSİONAL VƏ TEXNİKİ HAZIRLIQ TƏLƏB EDƏN MÜRƏKKƏB İSLAHAT

Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyindən sorğumuza cavab olaraq bildirdilər ki, ambulator dərman təminatı sisteminin tətbiqi genişmiqyaslı institusional və texniki hazırlıq tələb edən mürəkkəb islahatdır. Buna görə də sistem yalnız bütün zəruri mexanizmlər tam hazır olduqdan sonra tətbiq edilə bilər: "Hazırda bu sahədə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, maliyyə mexanizmlərinin hazırlanması, elektron resept sisteminin təkmilləşdirilməsi, eləcə də müvafiq dövlət informasiya sistemləri ilə inteqrasiyası istiqamətində işlər aparılır. Eyni zamanda, kompensasiya olunacaq dərman vasitələrinin müəyyən edilməsi, klinik və farmakoiqtisadi qiymətləndirmə metodologiyasının tətbiqi, pozitiv siyahısının hazırlanması və müqaviləli aptek şəbəkəsinin formalaşdırılması üzərində işlər davam etdirilir. Sistemin tətbiqi bu hazırlıq tədbirlərinin tamamlanmasından və müvafiq normativ sənədlərin təsdiqindən sonra mərhələli şəkildə həyata keçiriləcək".

## TÜRKİYƏ, CƏNUBİ KOREYA VƏ AVROPA ÖLKƏLƏRİNİN TƏCRÜBƏSİ ÖYRƏNİLİR

Qurumdan verilən məlumata görə, ilkin mərhələdə ürək-damar sistemi, ikinci mərhələdə həzm sistemi və üçüncü mərhələdə tənəffüs sistemi xəstəliklərinin müalicəsi üçün ambulator şəraitdə istifadə olunan dərman vasitələrinin icbari tibbi sığorta təminatına alınması nəzərdə tutulub: "Xəstəliklərin seçimi beynəlxalq təcrübə, xəstəlik yükü, əhalinin ehtiyacları, klinik effektivlik və iqtisadi səmərəlilik meyarları əsasında aparılıb. Prioritet olaraq geniş yayılmış xroniki xəstəliklərin, o cümlədən arterial hipertenziya, bronxial astma, mədə və onikibarmaq bağırsağın xora xəstəlikləri və digər sosial əhəmiyyətli xəstəliklərin müalicəsində istifadə olunan, sübutlara əsaslanan və yüksək klinik faydaya malik dərman vasitələrinin sistemə daxil edilməsi nəzərdə tutulub". Ambulator dərman təminatı sahəsində bir sıra ölkələrin, xüsusilə Türkiyə, Estoniya, Litva, Polşa, Cənubi Koreya və digər Avropa ölkələrinin təcrübəsi öyrənilir: "Bu ölkələrdə tətbiq olunan pozitiv dərman siyahısı, elektron resept, kompensasiya mexanizmləri və farmakoiqtisadi qiymətləndirmə modelləri təhlil edilib. Azərbaycanda isə ölkənin səhiyyə sistemi, mövcud qanunvericilik, maliyyə imkanları və rəqəmsal infrastruktur nəzərə alınmaqla milli modelin formalaşdırılması planlaşdırılıb. Məqsəd beynəlxalq təcrübənin uğurlu elementlərini yerli şəraitə uyğunlaşdıraraq dayanıqlı və səmərəli ambulator dərman təminatı sisteminin yaradılmasıdır". Agentlikdən bildirildi ki, hazırda əsas diqqət normativ-hüquqi bazanın tamamlanmasına, maliyyə dayanıqlığının təmin edilməsinə, elektron resept və digər informasiya sistemlərinin tam inteqrasiyasına, dərman vasitələrinin qiymətləndirilməsi və pozitiv siyahının formalaşdırılmasına, eləcə də müqaviləli aptek şəbəkəsinin yaradılmasına yönəldilib: "Bu hazırlıq tədbirlərinin məqsədi vətəndaşlar üçün şəffaf, dayanıqlı və səmərəli ambulator dərman təminatı sisteminin qurulmasını təmin etməkdir. Tətbiq tarixi ilə bağlı qərar bütün hazırlıq işləri yekunlaşdıqdan sonra aidiyyəti dövlət qurumları tərəfindən elan ediləcək".




## İSLAHATIN REALLAŞMASI ELEKTRON RESEPTLƏRİN TƏTBİQİ İLƏ SIX BAĞLIDIR

Milli Məclisin Səhiyyə komitəsinin üzvü Pərvanə Vəliyeva bildirir ki, qanuna əsasən, sığorta çərçivəsində qarşılanacaq dərman vasitələrini müəyyən edən pozitiv siyahı hazırlanmalı, siyahı təsdiqləndikdən sonra həmin dərmanların vətəndaşlara təqdim edilməsi üçün apteklərlə müqavilələrin bağlanması planlaşdırılmalı idi: "Bu yenilik vətəndaşların dərman xərclərinin azalmasına, müalicəyə əlçatanlığın artmasına və müalicənin fasiləsiz davam etdirilməsinə mühüm töhfə verəcək. Hər bir elektron səhiyyə islahatının tətbiqi müəyyən zaman alır. İlk növbədə, dərmanla təmin ediləcək şəxslər barədə "data"nın olması olduqca vacibdir. Əhalinin siyahısı, təxmini xəstələnmə səviyyəsi bu təminata ayrılacaq büdcənin və xərclərin proqnozlaşdırılmasına imkan verəcək. Bu, həm də mövcud resurslardan, kadrların uyğunlaşmasından və müəssisələrin bu prosesə hazırlığından çox asılıdır. Sərəncamdan irəli gələrək qəbul edilən qaydalar ötən ilin sonlarında təsdiqlənib. Aydındır ki, ölkə üzrə bunu təşkil etmək müəyyən zaman alır. Bu, islahatın reallaşması ölkə üzrə elektron reseptlərin tam tətbiqi ilə sıx bağlıdır. Bu sistem adətən mərkəzləşdirilmiş səhiyyə platformaları vasitəsilə işləyir. Dərman dövriyyəsinə nəzarətin gücləndirilməsi və şəffaflığın artırılması üçün elektron resept sisteminə tam keçid qaçılmazdır. Azərbaycanda elektron resept sisteminə keçid prosesi davam etsə də, bu proses hələ ki bütün sahələri tam əhatə etmir. Elektron reseptlər səhiyyədə təhlükəsizliyi, sürəti və şəffaflığı artıran mühüm yenilikdir. Onlar həm xəstələrin həyatını asanlaşdırır, həm də tibbi xidmətlərin keyfiyyətini yüksəldir. Gələcəkdə bu sistemlərin daha geniş tətbiqi səhiyyənin daha effektiv və müasir olmasına böyük töhfə verəcək".




## İlk mərhələdə ürək-damar sistemi xəstəlikləri dərmanları

Xidmətlər zərfinə hansı dərmanların daxil edilməsinə gəlincə, millət vəkilinin sözlərinə görə, bu proses mərhələli şəkildə həyata keçiriləcək: "İlk mərhələdə ürək-damar sistemi xəstəliklərinin müalicəsində istifadə olunan dərman vasitələrinin, növbəti mərhələdə isə həzm və tənəffüs sistemi xəstəlikləri üçün təyin edilən dərmanların icbari tibbi sığorta hesabına təmin olunması nəzərdə tutulur. Yəni, Dövlət Statistika Komitəsinin ölkədə xəstələnmə halları üzrə statistikasına baxsaq, ən çox xəstələnmə halları müşahidə olunan xəstəliklər üçün ambulator dərman təminatı faydalı olar, xəstələnmə səviyyəsi düzgün profilaktika ilə aşağı düşər, səhiyyə xərcləri azalar və iqtisadiyyata da öz müsbət təsirini göstərər". Millət vəkili bildirir ki, əlilliyi olan şəxslərin, orqan transplantasiyası keçirmiş şəxslərin, cırtdanboyluq, şəkərli diabet, xroniki böyrək çatışmazlığı, hemofiliya, vərəm, dağınıq skleroz, ixtioz, bullyoz epidermoliz, kistoz fibroz və digər xəstəliklərdən əziyyət çəkən şəxslərin dərman preparatları müvafiq dövlət proqramları çərçivəsində tam dövlət təminatı hesabına qarşılanır.



### XƏSTƏLƏR O DƏRMANLARI QƏBUL ETMƏSƏLƏR...

Professor Adil Qeybulla bildirir ki, müəyyən adda həm bahalı, həm çətin tapılan dərmanlar var ki, bəzi xəstələrə - autoimmun, onkoloji, orqan nəqli keçirmiş xəstələrə pulsuz verilməlidir: "Bu təminat elə təşkil olunmalıdır ki, regionlarda da bu məsələlərdə problem yaranmasın. Təəssüf ki, son vaxtlar müxtəlif  problemlərlə üzləşirik. Əgər orqan nəqli keçirmiş xəstə o dərmanı almasa, əməliyyat uğursuz olacaq. O orqan da elə belə deyil - onu yaxın adamı verib. Nəticədə həm yaxın adam orqanından məhrum olacaq, həm də xəstənin əməliyyatı uğursuz alınacaq". Professor hesab edir ki, bu məsələlərə məsuliyyətlə yanaşılmalıdır: "Xəstələrin mütəmadi qəbul etməli olduğu dərman preparatları ki, var onları qəbul etməsələr, həyatları bahasına başa gələ, ağırlaşmalar ola bilər. Bu məsələdə işin təşkilində yol verilən nöqsan birbaşa xəstəxanalara və onlara rəhbərlik edən qurumlara aiddir və onlar buna görə məsuliyyət daşıyırlar".

### PROSESƏ DÖVLƏTİN MÜDAXİLƏSİ

Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar Mərkəzinin rəhbəri İlqar Hüseynlinin sözlərinə görə, pozitiv siyahı - kimyəvi tərkibli dərman preparatlarının ən ucuzunun icbari tibbi sığorta tərəfindən qarşılanmasını həfəfləyir: "Xəstə ilə aptek arasında müəyyən məsələlər ortaya çıxa bilər: məsələn, xəstə patentləşdirilmiş - beynəlxalq adı eyni olan dərman preparatlarının ucuz variantını yox, bazarda daha baha və keyfiyyətli olanını istəyir. Bu zaman onun baha olan hissəsi icbari tibbi sığorta tərəfindən qarşılanmayacaq.  Xidmətlər paketi zərfi bunu tənzimləmir.

Əslində başa düşüləndir. Kardioloji, diabetdən əziyyət çəkən xəstələrin dərmanla təminatının operativliyi təmin olunsa çox yaxşı olar. Sözsüz ki, bu da təchizatla bağlıdır. Bu proseslər özəl şirkətlər tərəfindən həyata keçirildiyinə görə, bəzi dərman preparatlarının ölkəyə gəlişində fasilələr yaranır. Hesab edirəm ki, Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinin yanında dövlətin maliyyələşməsi  əsasında dərman preparatlarının fasiləsiz təchizatını təmin edən bir qurum təsis olunmalıdır ki, prosesi özəl şirkətlərin asılılığından azad etsinlər. Gecikmələr məhz bununla bağlıdır. Bu prosesə dövlətin müdaxiləsi mütləq lazımdır". Ekspert bildirir ki, qanuna görə, ambulator xəstələrin təchizatı ilə bağlı  müqavilə sənədi var: "Bu sənəd əsasında yerli icra hakimiyyəti qurumları ilə apteklər tərəfindən müqavilələr bağlanır. Müqavilələrə əsasən, artıq icbari tibbi sığorta üzrə daxil olan və sığorta həcmi qarşılanan reseptlərin pulsuz buraxılışına imkanlar yaradılır. Əgər bu müqavilə yoxdursa, müəssisə buna getmir. 2026-cı ildə bu, hələ geniş vüsət almayıb. Ambulator xəstələrin reseptlərinin qarşılanması halları müşahidə olunmur".

# İLLİK İNFLYASİYA PROQNOZLARI ARTIRILDI

Azərbaycanda baza ssenarisi üzrə illik inflyasiyanın 2026-cı ildə 6,1 %, 2027-ci ildə 5,8 % olacağı gözlənilir. Bundan əvvəl illik inflyasiyanın 2026-cı ildə 5,9 %, 2027-ci ildə isə 4,5 % olacağı proqnozlaşdırılmışdı.



Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti (İH) uçot dərəcəsinin 6,5 % səviyyəsində saxlanılması barədə qərar qəbul edib. "Report" bu barədə AMB-yə istinadən xəbər verir.

### NÖVBƏTİ QƏRAR SENTYABRDA VERİLƏCƏK

Məlumata görə, faiz dəhlizinin aşağı həddi 5,5 %, yuxarı həddi isə 7,5 % səviyyəsində saxlanılıb. "Faiz dəhlizinin parametrlərinə dair qərar qəbul olunarkən faktiki və proqnozlaşdırılan inflyasiyanın dinamikası, eləcə də daxili maliyyə bazarında gedən proseslər nəzərə alınıb", - deyə AMB bəyan edib. Bildirilir ki, qlobal mühitdəki qeyri-müəyyənlikləri nəzərə alaraq makroiqtisadi göstəricilərin bir neçə ssenaridə proqnozları nəzərdən keçiriləcək. Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar barədə məlumat sentyabrın 23-də ictimaiyyətə açıqlanacaq.

### PROQNOZLARIN DƏYİŞDİRİLMƏSİNİN ƏSAS SƏBƏBLƏRİ

Azərbaycanda baza ssenarisi üzrə illik inflyasiyanın 2026-cı ildə 6,1 %, 2027-ci ildə isə 5,8 % olacağı gözlənilir. Bundan əvvəl qurum illik inflyasiyanın 2026-cı ildə 5,9 %, 2027-ci ildə isə 4,5 % olacağını bəyan etmişdi. "İllik inflyasiya hədəf daxilindədir və baza ssenarisi üzrə proqnoz trayektoriyasına uyğun hərəkət edir. 2026-cı ilin iyun ayında 12 aylıq inflyasiya 5,8 % təşkil edib. İllik qiymət artımı qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7,1 %, ödənişli xidmətlər üzrə 5,6 %, qeyri-qida məhsulları üzrə isə 3,8 % olub. İllik baza inflyasiya 5,5 % təşkil edib. İllik inflyasiyanın 2027-ci ilin II yarısından hədəfə qayıdacağı gözlənilir. 2026-cı ilin sonuna gözlənilən inflyasiyanın hədəfdən kənarlaşması proqnoz xətası səviyyəsindədir. İnflyasiya proqnozunun artma istiqamətində dəyişdirilməsi əsasən birbaşa və dolayı xarici mənşəli xərc amillərinin təsirlərinin fəallaşmasından irəli gəlir ki, bu da ortamüddətli dövrdə qalıcı xarakter daşımır", - deyə AMB bəyan edib.

### NAĞD XARİCİ VALYUTANIN ALIŞI SATIŞINI ÜSTƏLƏYİB

Bu ilin yanvar-iyun aylarında Azərbaycanda nağd xarici valyutanın alışı satışını 482 milyon ABŞ dolları üstələyib. AMB-nin məlumata görə, bu, həm nağd, həm də qeyri-nağd seqmentlərdə özünü göstərib. Bundan başqa, rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsi son 12 ayda 3,8 % bəndi azalaraq mayda 25,6 %-ə düşüb. Valyuta bazarında tələbin kəskin azaldığı, təklifin əhəmiyyətli artdığı şəraitdə AMB alışyönlü müdaxilə həyata keçirib. Cari ilin ötən dövründə qurumun valyuta ehtiyatları 2,2 milyard ABŞ dolları və yaxud 19,5 % artaraq 13,8 milyard ABŞ dolları təşkil edib.



## SƏKKİZ MİLYARD DOLLARA YAXIN MÜSBƏT SALDO

AMB-dən bildirilir ki, Azərbaycanda xarici sektor göstəriciləri əlverişli olaraq qalır: "Gömrük statistikasına əsasən, 2026-cı ilin I yarısında ölkənin xarici ticarətində səkkiz milyard ABŞ dollarına yaxın məbləğdə müsbət saldo qeydə alınıb. İlkin məlumatlara görə, yanvar-iyun aylarında pul baratları üzrə saldo (yəni daxilolmalarla xaricolmaların fərqi) 540,6 milyon ABŞ dolları təşkil etməklə ötən ilin müvafiq dövrünə nəzərən 82,8 % artıb. 2026-cı ilin sonuna və 2027-ci ilə cari əməliyyatlar balansının profisiti üzrə proqnozu artım istiqamətində dəyişdirilib. Bu, cari ildə qlobal enerji qiymətlərinin yüksəlməsi, eləcə də qeyri-neft-qaz əmtəə və xidmətlər ixracı üzrə müsbət meyillərin davam etməsi ilə bağlıdır".



# SOCAR-ın strateji layihələri müzakirə edilib

Türkiyədə TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və "SOCAR Türkiyə"nin İdarə heyətlərinin iclası keçirilib. "Report" xəbər verir ki, bu barədə SOCAR-ın prezidenti Rövşən Nəcəf "X" hesabında paylaşım edib.

R.Nəcəf qeyd edib ki, iclasda "SOCAR Türkiyə"nin fəaliyyət nəticələri və strateji layihələrin icra vəziyyəti dəyərləndirilib, əməliyyat səmərəliliyi, rəqəmsal transformasiya, innovasiya və dayanıqlı artım üzrə qarşıdakı dövrün əsas prioritetləri müzakirə edilib.

O, həmçinin əlavə edib ki, TANAP üzrə layihənin Türkiyə və Avropanın enerji təchizatı təhlükəsizliyinə verdiyi töhfə, əməliyyat göstəriciləri və növbəti mərhələ üçün əsas fəaliyyət istiqamətləri nəzərdən keçirilib: "Əldə etdiyimiz bütün nəticələrin arxasında güclü komandalarımızın böyük əməyi dayanır. Əminəm ki, fəaliyyət modelimiz və uzunmüddətli strateji baxışımızla Türkiyənin enerji gələcəyinə dəyər qatmağa, regionun enerji təhlükəsizliyini daha da gücləndirməyə və ölkələrimiz arasındakı strateji müttəfiqliyi möhkəmləndirməyə davam edəcəyik".

Qeyd edək ki, TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və bu ölkədən Avropaya nəqlini həyata keçirir. TANAP Cənubi Qafqaz Boru kəməri (CQBK) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə birlikdə "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan bir layihədir. TANAP Türkiyə ərazisindən keçərək Türkiyə-Yunanıstan sərhədində başa çatır və sonra təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qazet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 968
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# YOLLARIMIZ NİYƏ ÇÖKÜR?

Son illər paytaxtın müxtəlif küçə və prospektlərində asfalt örtüyünün qəfil çökməsi halları müşahidə edilir. Ekspertlər hesab edirlər ki, yolların çökməsi tikinti keyfiyyəti və Bakının relyefi ilə də bağlı ola bilər.





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bakıda yolların çökməsi halları artıq vaxtaşırı gündəmə gələn problemlərdən birinə çevrilib. Son illər paytaxtın müxtəlif küçə və prospektlərində asfalt örtüyünün qəfil çökməsi nəticəsində nəqliyyatın hərəkəti məhdudlaşdırılır, bəzi hallarda isə avtomobillər yaranan çuxurlara düşərək zədələnir. Bu cür hadisələr həm sürücülərin, həm də piyadaların təhlükəsizliyi baxımından narahatlıq doğurmaqla yanaşı, yol infrastrukturunun dayanıqlığı və yeraltı mühəndis-kommunikasiya şəbəkələrinin vəziyyəti ilə bağlı müzakirələri də yenidən gündəmə gətirir.

Maraqlıdır, son vaxtlar yollarımız niyə tez-tez çökür?

### "BAKININ RELYEFİ YOLLARIN ÇÖKMƏSİ RİSKİNİ ARTIRAN ƏSAS TƏBİİ AMİLLƏRDƏN BİRİDİR"

Coğrafiya İnstitutunun "Ekocoğrafiya" şöbəsinin müdiri Ənvər Əliyev "Kaspi" qəzetinə bildirdi ki, Bakının relyefi yolların çökməsi riskini artıran əsas təbii amillərdən biridir: "Şəhərin ümumi relyefi böyük bir amfiteatrı xatırladır. Yasamal tirələrinin nisbi hündürlüyü dəniz səviyyəsindən təxminən 360 metr, Xəzər dənizinin səviyyəsi isə -28 metr təşkil edir. Bu hündürlük fərqi nəticəsində güclü yağışlar və ya su axınları zamanı sular yüksək ərazilərdən aşağı hissələrə axaraq torpaq qatlarını yuyur. Bu prosesdə ərazinin litoloji quruluşu da mühüm rol oynayır. Bakı tarixən küləkli şəhər olub. Ətraf quraq ərazilərdən küləyin gətirdiyi toz və xırda torpaq hissəcikləri zamanla burada toplanaraq müxtəlif qalınlıqda çöküntü qatları formalaşdırıb. Xüsusilə çökəkliklərdə qalın gil qatları yaranıb, yüksək ərazilərdə isə bu qatlar daha nazikdir. Yumşaq süxurlar və torpaq layları suyun təsiri altında asanlıqla yuyulduğundan həmin ərazilərdə boşluqlar yarana və bu da yol örtüyünün çökməsinə şərait yarada bilər".



Ənvər Əliyev

### "URBANİZASİYA PROSESİ YOL İNFRASTRUKTURUNA ƏLAVƏ YÜK YARADIB"

Ə.Əliyevin sözlərinə görə, Bakının sürətli urbanizasiya prosesi də yol infrastrukturuna əlavə yük yaradıb: "Bakı inzibati mərkəzə çevrildikdən sonra şəhərə həm xaricdən, həm də ölkənin müxtəlif bölgələrindən intensiv əhali axını başladı. Bunun nəticəsində əhalinin sayı sürətlə artdı. Əhali artımı ilə paralel olaraq avtomobillərin sayı da çoxaldı və bu, mövcud yol infrastrukturuna ciddi yük gətirdi. Sovet dövründə nəqliyyat vasitələrinin sayı indiki qədər deyildi. Bu gün isə həm minik, həm də ağır tonnajlı nəqliyyat vasitələrinin intensiv hərəkəti yolların istismar müddətinə birbaşa təsir göstərir".

Ekspert qeyd edir ki, yol tikintisi xüsusi mühəndislik standartlarına əsaslanan mürəkkəb texnoloji prosesdir və bu normalara tam əməl olunmaması sonradan müxtəlif problemlərə səbəb ola bilər: "Binaların dayanıqlığı əsasən zəlzələ zamanı sınaqdan çıxırsa, yolların keyfiyyəti gündəlik istismar zamanı özünü göstərir. Güclü yağışlar, intensiv avtomobil axını və xüsusilə ağır yük maşınlarının hərəkəti yolun konstruksiyasında olan çatışmazlıqları qısa müddətdə üzə çıxara bilir".

### "SƏKİLƏRDƏ DƏ ÇÖKMƏLƏR VƏ DEFORMASİYALAR VAR"

Mütəxəssis hesab edir ki, problem təkcə avtomobil yolları ilə məhdudlaşmır, şəhərin piyada infrastrukturu da ciddi problemlərlə üzləşir: "Şəhərdə səkilərə diqqət yetirsəniz, görərsiniz ki, təkcə avtomobil yollarında deyil, səkilərdə də çökmələr və deformasiyalar var. Demək olar ki, tam hamar səkiyə rast gəlmək çətindir. Eyni vəziyyət parkların döşəmə örtüklərində də müşahidə olunur. Bu cür qüsurlar xüsusilə yaşlı insanlar və hərəkət məhdudiyyətli şəxslər üçün ciddi problem yaradır. Norveçin paytaxtı Osloda səki daşlarının səviyyəsi millimetr dəqiqliyi ilə tənzimlənir ki, insanlar onlara ilişərək yıxılmasın. Təəssüf ki, bizdə bu məsələyə kifayət qədər diqqət yetirilmir".



### "KANALİZASİYA XƏTLƏRİNDƏ ƏN KİÇİK NASAZLIQ SU SIZMASINA SƏBƏB OLUR"

Ə.Əliyevin sözlərinə görə, yolların çökməsinin əsas səbəblərindən biri də yağış sularının düzgün kənarlaşdırılmaması və yeraltı kommunikasiya şəbəkələrində yaranan nasazlıqlardır: "Güclü yağışlar zamanı asanlıqla yuyulan gilli torpaqların mövcudluğu riski artırır. Kanalizasiya və digər yeraltı kommunikasiya xətlərində yaranan ən kiçik nasazlıq, hətta boruların cəmi bir neçə santimetr yerini dəyişməsi belə su sızmasına səbəb olur. Su torpağı yuyaraq boşluqlar yaradır. Bu boşluğun üzərindən nəqliyyat vasitəsi keçən kimi yol örtüyü çökür. Bu cür problemlərin qarşısını almaq üçün yol tikintisi zamanı beynəlxalq standartlara uyğun texnologiyaların tətbiqi vacibdir. Avropa ölkələrində və bəzi Asiya dövlətlərində yolun əsası bir neçə metr dərinliyədək hazırlanır, müxtəlif fraksiyalı çınqıl qat-qat döşənir və hər qat ağır texnika ilə günlərlə sıxlaşdırılır. Bundan sonra qalın asfalt örtüyü salınır. Belə texnologiya suyun yolun alt qatlarına nüfuz etməsinin qarşısını alır və örtüyün dayanıqlığını artırır. Bundan əlavə, yolun maililiyinin düzgün hesablanması da mühüm əhəmiyyət daşıyır. Əgər yolun maililiyi düzgün layihələndirilməzsə, yağış suları müəyyən nöqtələrdə toplanacaq. Son vaxtlar yağan intensiv yağışlar da mövcud problemləri açıq şəkildə üzə çıxardı".

### "SU VƏ KANALİZASİYA XƏTLƏRİ YOLUN DAYANIQLILIĞINA CİDDİ TƏSİR GÖSTƏRİR"

Yol infrastrukturu üzrə ekspert Yasin Mustafayev bildirib ki, yolların çökməsi halları həm Bakıda, həm də bölgələrdə müşahidə olunur və hər bir hadisəyə ayrıca yanaşmaq lazımdır: "Əgər yol uzun illər heç bir problem yaratmadan istifadə olunubsa və qəfil çökübsə, ilk növbədə yeraltı kommunikasiya xətlərini araşdırmaq lazımdır. Xüsusilə su və kanalizasiya xətləri yolun dayanıqlılığına ciddi təsir göstərir. Su sızmaları torpağı yuyaraq boşluqlar yaradır. Kanalizasiya kollektorlarında axının güclü olması da eyni nəticəyə gətirib çıxara bilər".

### TİKİNTİ KEYFİYYƏTİ

Mütəxəssis bildirir ki, yolun çökməsi tikinti keyfiyyəti ilə də bağlı ola bilər. Lakin bu halda proses adətən qəfil deyil, tədricən baş verir: "Tikinti zamanı istifadə olunan materiallar və ya texnologiya standartlara uyğun olmadıqda yol örtüyü zamanla çökməyə başlayır. Əvvəlcə kiçik deformasiyalar yaranır, sonradan həmin hissələrə təmir məqsədilə yamaq vurulur, lakin problem aradan qaldırılmadığı üçün çökmə davam edir. Buna görə də qəfil baş verən çökmələrlə tədricən yaranan deformasiyaları bir-birindən fərqləndirmək lazımdır. Hər bir çökmə hadisəsi ayrıca araşdırılmalı, səbəb müəyyənləşdirildikdən sonra aradan qaldırılmalıdır".

Mütəxəssis sonda vurğuladı ki, yol tikintisi normativ tələblərə uyğun aparıldıqda, material seçimi, işlərin ardıcıllığı və texnologiya düzgün tətbiq edildikdə belə problemlərin yaranma ehtimalı minimuma enir.

# ŞƏKƏR İSTEHSALINDA REKORD ARTIM

Azərbaycanda şəkər istehsalı və ehtiyatları əhəmiyyətli dərəcədə artıb. Ekspertlər bunu dövlət dəstəyi və istehsal imkanlarının genişlənməsi ilə əlaqələndirsələr də, sektorun uzunmüddətli inkişafı üçün yerli xammal bazasının gücləndirilməsini vacib sayırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda şəkər istehsalında nəzərəçarpacaq artım qeydə alınıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-may aylarında ölkədə 169,6 min ton şəkər istehsal edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 43,7 faiz çoxdur. Eyni zamanda, şəkərli qənnadı məmulatlarının istehsalı 7,5 faiz artaraq 4 056,5 tona çatıb. İyunun 1-nə ölkədə 19,9 min ton şəkər və 71,4 ton şəkərli qənnadı məmulatı ehtiyatı formalaşıb. Bu göstəricilər ötən ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq 3,4 dəfə və 26,3 faiz yüksəkdir. Bəs istehsaldakı artım hansı amillərlə bağlıdır və bu, ölkənin şəkərlə özünütəminat imkanlarına necə təsir göstərə bilər?

### DÖVLƏT VƏ ÖZƏL SEKTOR ARASINDAKI UĞURLU ƏMƏKDAŞLIĞIN NƏTİCƏSİ

İqtisadçı-ekspert Emin Qəriblinin sözlərinə görə, qısa müddət ərzində məhsuldarlıqdakı belə bir sıçrayış təsadüfi deyil: "İstehsalın artımını şərtləndirən başlıca qüvvə dövlət və özəl sektor arasındakı uğurlu əməkdaşlıqdır. Fikrimcə, məhsuldarlıqdakı bu artımın əsas səbəbi dövlətin aqrar sənaye kompleksinə göstərdiyi davamlı diqqətin və dəstəyin nəticəsidir. Bu dəstək fonunda müvafiq sahədə fəaliyyət göstərən yerli şirkətlərin fəallığı və yeni texnologiyaların tətbiqi prosesi sürətlənib. İkincisi, mühüm aqro-iqlim faktorunu mütləq nəzərə almalıyıq. Bilirik ki, əvvəlki illərdə ölkəmizdə nisbətən quraqlıq olurdu və su ehtiyatlarının azlığı kənd təsərrüfatı məhsuldarlığına mənfi təsir edirdi. Lakin bu il quraqlıq müşahidə edilmir, hava şəraiti və suvarma imkanları xammal bazası üçün olduqca əlverişlidir. Yəni həm iqtisadi, həm idarəetmə, həm də təbii olaraq bir çox müsbət amillər məhsuldarlığa öz təsirini göstərib".

### ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN MÜHÜM ELEMENTİ

E.Qəribli şəkərin sadəcə qida deyil, ərzaq təhlükəsizliyinin mühüm elementi olduğunu diqqətə çatdırıb: "Şəkər gündəlik istifadə olunan, əhalinin baza istehlak səbətində yer alan mühüm strateji məhsuldur. İstənilən halda, Azərbaycanın qlobal bazarlardakı qeyri-müəyyənliklər fonunda bu sahədə özünü təmin edə bilməsi çox yaxşı haldır. Ölkənin şəkər bazarına və özünütəminat məsələsinə konkret rəqəmlərlə gəldikdə, daxili tələbat təxminən 280-290 min tondur. Biz isə istehsalı qısa müddətdə artıq 180-190 min tona çatdırmışıq. İstehsal müəssisələri işi bu templə davam etdirərsə, heç şübhəsiz ki, ilin sonuna qədər istehsal olunan şəkər Azərbaycanın daxili ehtiyacını tam təmin edəcək və biz idxal asılılığından əhəmiyyətli dərəcədə qurtulacağıq".

### "İXRAC EDƏ BİLƏRİK"

İqtisadçı qeyd edib ki, bu uğur zəncirvari olaraq digər emal sahələrinə də təkan verəcək: "Təbii ki, bunun nəticəsində qənnadı məhsullarının istehsalı üçün lazım olan xammal bazası da xaricdən gətirilən bahalı idxal hesabına deyil, məhz yerli resurslar hesabına ödənilə bilər. Bu isə yerli qənnadı məhsullarının rəqabət qabiliyyətini artıracaq. Hətta yaxın gələcəkdə daxili tələbatdan artıq məhsul da yarana bilər. Belə olan halda hökumət yaranmış bu artıq məhsulu ya strateji ehtiyat kimi anbarlarda saxlaya, ya da birbaşa xarici bazarlara ixraca yönəldə bilər".

### "XAMMAL İDXALI DAXİLİ İSTEHSAL STATİSTİKASINI YÜKSƏLDİB"

İqtisadçı-ekspert Eyyub Kərimli isə qeydə alınan rəqəmlərin arxasında dayanan texniki və struktur detallara diqqət çəkib. Ekspert şəkər istehsalındakı bu sıçrayışı ümumilikdə müsbət qiymətləndirsə də, əsas böyümənin daxili xammal yox, idxal və mövcud emal gücü hesabına baş verdiyini vurğulayıb: "Şəkər istehsalında 43,7 faiz artım, istənilən iqtisadiyyat üçün kifayət qədər yüksək və ciddi göstəricidir. Bunun arxasında bir neçə real amil dayana bilər. Bundan ilk növbədə, fəaliyyətdə olan şəkər emalı müəssisələrinin mövcud istehsal gücündən daha səmərəli istifadə etməsini və proseslərin optimallaşdırılaraq istehsal həcminin artırılmasını qeyd etməliyik. İkinci və bəlkə də ən mühüm amil isə xammal təminatının yaxşılaşdırılmasıdır. Lakin Azərbaycanda istehsal olunan şəkərin əhəmiyyətli hissəsi təmiz yerli xammal (çuğundur) deyil, əsasən idxal olunan xam şəkərin emalı hesabına əldə edilir. Məhz bu xammal idxalı daxili istehsal statistikasını yüksəldib".

E.Kərimlinin fikrincə, digər səbəblərdən biri daxili və ixrac bazarlarında tələbatın, iqtisadi gözləntilərin yüksəlməsi, müəssisələrin qlobal riskləri və qiymət dalğalanmalarını sığortalamaq üçün əvvəlcədən istehsalı artırması və böyük ehtiyat yaratmasıdır: "Hesab edirəm ki, hazır məhsul ehtiyatlarının 3,4 dəfə artması daha çox bazarda istehsalın satış tempini üstələməsi göstəricisidir. Bu, istehsalçıların gələcək tələbat artımına əvvəlcədən hazırlaşması deməkdir. Yəni hazırkı vəziyyətdə bazarda artıq istehsal formalaşıb və təklif istehlakı üstələyib. Bu gün yeni emal gücü, zavodlarımızın potensialı olduqca yüksəkdir. Lakin xammal baxımından ölkənin hələ də xarici bazarlardan güclü asılılığı var və bu da ölkədə yerli şəkər istehsalına tam, 100 faizlik keçilməsini əngəlləyən ən başlıca amillərdən biridir".

### "FERMERLƏRİN ROLU VƏ MARAĞI ARTIRILMALIDIR"

Çıxış yolu olaraq ekspert uzunmüddətli aqrar islahatlara və yerli xammalın təşviqinə ciddi ehtiyac olduğunu bildirib: "Hesab edirəm ki, uzunmüddətli perspektivdə dövlətin və sektorun əsas məqsədi sadəcə şəkərin sənaye istehsalını artırmaq deyil, həm də bilavasitə daxili xammal bazasının ardıcıl genişləndirilməsidir. Burada ilk növbədə fermerlərin rolu və marağı artırılmalı, aqrar sektorla emal müəssisələri arasında təchizat zənciri və inteqrasiyanın gücləndirilməsi təmin olunmalı, innovasiyalar hesabına məhsuldarlıq yüksəldilməlidir. Yalnız bu halda, ölkədə həm xarici idxaldan asılılıq azalar, həm də ərzaq təhlükəsizliyi xarici faktorlara qarşı daha etibarlı və dayanıqlı şəkildə təmin edilə bilər".



# ELEKTROMOBİL BAZARINDA YENİ ÇAĞIRIŞ

Son dövrlərdə elektromobillər üçün yeni enerji doldurma məntəqələrinin quraşdırılması əhəmiyyətli dərəcədə zəifləyib. Bəzi mövcud məntəqələr isə texniki nasazlıq səbəbindən istifadəyə yararsız vəziyyətə düşüb. Nəticədə elektromobil sahibləri işlək məntəqələrdə uzun növbələrlə üzləşirlər.

SEVİNC ABBASOVA

Son illər Azərbaycanda elektromobillərin istifadəsinin genişləndirilməsi məqsədilə mühüm təşviq tədbirləri həyata keçirilib. Vergi və gömrük güzəştləri nəticəsində ölkəyə gətirilən elektrik avtomobillərinin sayı artıb, bununla paralel olaraq şəhərin müxtəlif ərazilərində enerji doldurma məntəqələri quraşdırılıb. Həm dövlət qurumları, həm də özəl şirkətlər bu prosesə qoşularaq şarj infrastrukturunun sürətlə inkişaf edəcəyini açıqlayırdılar.

Ancaq hazırda fərqli mənzərə müşahidə olunur. Son dövrlərdə yeni enerji doldurma məntəqələrinin quraşdırılması əhəmiyyətli dərəcədə zəifləyib, bəzi mövcud məntəqələr isə texniki nasazlıq səbəbindən istifadəyə yararsız vəziyyətdə qalıb. Bunun nəticəsində elektromobil sahibləri işlək məntəqələrdə uzun növbələrlə üzləşir, enerji doldurmaq üçün xeyli vaxt itirirlər.

Bəs, görəsən, enerji doldurma infrastrukturunun inkişaf tempi niyə zəifləyib?



### YAXIN İLLƏRDƏ PROBLEM DAHA DA KƏSKİNLƏŞƏ BİLƏR

Nəqliyyat məsələləri üzrə ekspert Adil Nəbiyev hesab edir ki, son dövrlərdə elektromobillər üçün yeni enerjidoldurma məntəqələrinin quraşdırılması tempinin zəifləməsi dövlətin bu sahədən geri çəkilməsi anlamına gəlmir. Onun sözlərinə görə, ilkin mərhələdə əsas məqsəd ölkə üzrə minimal şarj şəbəkəsinin yaradılması idi. Hazırda isə proses daha çox bazar prinsipləri əsasında davam etdirilir. Eyni zamanda, yeni şarj məntəqəsinin yaradılması təkcə avadanlığın quraşdırılması ilə yekunlaşmır. Bunun üçün kifayət qədər elektrik gücü, transformator və kabel infrastrukturu, şəbəkəyə qoşulma, ödəniş sistemi, internet bağlantısı və davamlı texniki xidmət təmin edilməlidir.

Ekspertin sözlərinə görə, mövcud infrastruktur hazırkı elektromobil sayını müəyyən qədər qarşılasa da, yaxın illərdə bazarın genişlənməsi üçün yetərli deyil. Əsas məsələ şarj məntəqələrinin sayından çox onların işlək vəziyyətdə olması, şarj gücü, əlçatanlığı və ölkə üzrə düzgün yerləşdirilməsidir. Xüsusilə çoxmənzilli binalarda yaşayan elektromobil sahibləri ictimai şarj şəbəkəsindən asılı olduqları üçün bu sahədəki çatışmazlıqları daha çox hiss edirlər.



A.Nəbiyev bildirib ki, şarj məntəqələrinin işləməməsi texniki xidmətin vaxtında aparılmaması, proqram təminatındakı problemlər, ehtiyat hissələrinin gec əldə olunması, müxtəlif qurumlar arasında məsuliyyət bölgüsünün tam müəyyənləşdirilməməsi və bəzi məntəqələrin iqtisadi cəhətdən səmərəli işləməməsi ilə bağlıdır. Bu səbəbdən yalnız yeni cihazların quraşdırılması deyil, onların fasiləsiz işləməsini təmin edəcək peşəkar texniki xidmət sisteminin qurulması da vacibdir.

## VAHİD ŞARJ XƏRİTƏSİNİN YARADILMASINA EHTİYAC VAR

A.Nəbiyevin fikrincə, problemin həlli üçün ölkə üzrə vahid şarj infrastrukturunun inkişaf proqramı hazırlanmalı, məntəqələr real tələbat və nəqliyyat axını nəzərə alınmaqla yerləşdirilməlidir. İlk növbədə Bakı şəhərinin yaşayış massivlərində, çoxmənzilli binaların ətrafında, rayon mərkəzlərində və regionlararası magistral yollar boyunca şarj şəbəkəsi genişləndirilməlidir. Xüsusilə Bakı–Quba, Bakı–Şamaxı, Bakı–Qazax və Bakı–Astara istiqamətlərində kifayət qədər sürətli şarj məntəqələrinin yaradılması vacibdir. Eyni zamanda, yeni tikilən binaların parkinqlərində şarj nöqtələrinin yaradılması üçün zəruri infrastruktur əvvəlcədən nəzərdə tutulmalıdır.

Ekspertin sözlərinə görə, özəl sektorun bu sahəyə marağı qalır. Lakin yüksək investisiya xərcləri, uzun geri dönüş müddəti və şəbəkəyə qoşulma problemləri investisiyaların sürətini azaldır. Buna görə də dövlət tərəfindən vergi və gömrük güzəştləri, subsidiya və güzəştli kredit mexanizmləri tətbiq edilməli, dövlət-özəl tərəfdaşlığı genişləndirilməli, vahid rəqəmsal platforma yaradılmalıdır.


Adil Nəbiyev

## "SADƏCƏ PROSES ƏVVƏLKİ KİMİ GÖRÜNMÜR"

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının İdarə Heyətinin sədri Eyyub Əliyevin sözlərinə görə, həm dövlət qurumları, həm də özəl sektor tərəfindən şarj məntəqələrinin quraşdırılması reallaşdırılıb. Onun fikrincə, son dövrlərdə yeni şarj məntəqələrinin quraşdırılması tempinin nisbətən zəifləməsi iqtisadi amillərlə bağlıdır. Belə ki, özəl sektor yatırdığı vəsaitin geri dönüşünü nəzərə alır. Bəzi məntəqələr əvvəlcə sınaq məqsədilə quraşdırılır, gözlənilən istifadə səviyyəsi əldə olunmadıqda isə başqa əraziyə köçürülməsi zərurəti yaranır. Bu isə müxtəlif dövlət qurumlarından icazələrin alınması və digər texniki prosedurlar səbəbindən müəyyən vaxt tələb edir.


Eyyub Əliyev

E. Əliyev hesab edir ki, hazırkı mərhələdə həm Bakı, həm də regionlara planlı şəkildə səyahət edən elektrik avtomobili sahibləri şarj məntəqələri ilə bağlı ciddi problem yaşamırlar. Onun sözlərinə görə, bəzi stansiyaların müvəqqəti işləməməsinin səbəbi proqram təminatında yaranan nasazlıqlar, ərazidə aparılan tikinti və ya təmir işləri, yaxud da şirkətdaxili texniki problemlər ola bilər.

E.Əliyevin sözlərinə görə, özəl sektorun bu sahəyə investisiya marağı da azalmayıb. Sadəcə, bir müddət əvvəl şarj infrastrukturunun qurulması geniş təbliğ olunduğundan görülən işlər daha çox diqqət çəkirdi. Sonradan bu mövzu medianın və ictimaiyyətin gündəmindən qismən kənarda qaldığı üçün sanki proses dayanmış kimi təsəvvür yaranıb.

### SADƏLƏŞDİRİLMİŞ PROSEDURLAR İNVESTİSİYALARI SÜRƏTLƏNDİRƏ BİLƏR

Ekspert hesab edir ki, dövlət tərəfindən texniki şərtlərin və digər prosedurların daha da sadələşdirilməsi bu sahədə fəaliyyət göstərən şirkətlər üçün əlavə stimul ola bilər. Bununla yanaşı, o vurğulayıb ki, hazırda dövlət tərəfindən hər hansı maneə yaradılmır.

E. Əliyev əlavə edib ki, gələcəkdə şarj məntəqələrinin günəş panelləri vasitəsilə istehsal olunan enerji ilə təmin edilməsi və həmin enerjinin satışına şərait yaradılması istiqamətində atılacaq addımlar özəl sektorun marağını daha da artıraraq yeni investisiyaların cəlb olunmasına təkan verə bilər.

Müəllimlikdən başlayıb, dövlət idarəçiliyinə uzanan şərəfli ömür yolu

# MÜƏLLİM, DİPLOMAT, TARİXÇİ, ƏDİB...

**Yazıçı, maarif xadimi, etnoqraf, folklorşünas Abdulla bəy Sübhanverdixanov AXC dövründə Xarici işlər nazirinin katibi vəzifəsində fəaliyyət göstərib. O, Azərbaycan mədəniyyətinin ən görkəmli simalarından biri kimi tariximizdə layiqli yerini tutur.**

RAFİK SƏFƏROV

Dövrünün tanınmış yazıçısı, maarifçi, etnoqraf və folklorşünas, Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövrünün ictimai-siyasi xadimlərindən biri olan Abdulla bəy Sübhanverdixanov 1883-cü il yanvarın 1-də Qazax mahalının Hüseynbəyli kəndində anadan olub. O, ibtidai təhsilini Qazaxda alıb. Daha sonra isə təhsilini 1898-1903-cü illərdə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi sayılan Qori Müəllimlər Seminariyasında davam etdirib.

### KASIB AİLƏLƏRİN UŞAQLARINA DƏRS DEYİB

Abdulla Sübhanverdixanov 1903-cü ildə seminariyanı bitirdikdən sonra Batumi və Bakının ibtidai məktəblərində müəllim kimi fəaliyyət göstərib. O, 1905-ci ildə Bakıda altı sinifli şəhər məktəbinə müəllim təyin edilir. Bəzi məlumatlara görə, Abdulla bəy 1905-ci ildə Bakıda rus-tatar məktəblərində, həmçinin “Nəşr-maarif” və “Nicat” cəmiyyətlərinin nəzdində fəaliyyət göstərən altı sinifli şəhər məktəblərində yoxsul ailələrin uşaqlarına dərs deyib.

### XİN-DƏ MÜHÜM VƏZİFƏLƏRİ İCRA EDİB

Abdulla bəy Sübhanverdixanov AXC dövründə Xarici işlər nazirinin katibi vəzifəsində fəaliyyət göstərib. Azərbaycan Respublikasının 1918-1920-ci ilə dair “Adres kalendar” adlı məlumat kitabında dərc olunmuş məlumatlara əsasən, Xarici işlər naziri Fətəli Xan Xoyski, onun müavini Məmməd Xan Təkinski, həmin nazirliyin dəftərxanasının direktor müavini Konstantin Davidoviç Sulkeviç olan dövrdə Abdulla bəy Sübhanverdixanov nazirinin katibi vəzifəsini tutub. Bu dövrdə Abdulla bəy Xarici İşlər Nazirliyinin Dəftərxanasının direktoru vəzifəsini də icra edib.

### QEYRİ-TÜRK MƏMURLARA AZƏRBAYCAN DİLİ DƏRSİ DEYİB

Azərbaycanın ədəbi-mədəni mühitinin aparıcı simalarından biri sayılan Əbdürrəhim bəy Haqverdiyevin Azərbaycan Respublikasının Dağlı Respublikasında diplomatik nümayəndəsi təyin edilməsi haqqında vəsiqəsi 1919-cu il fevralın 25-də məhz Xarici işlər naziri Fətəli Xan Xoyski və dəftərxana direktoru vəzifəsini icra edən Abdulla bəy Sübhanverdixanov tərəfindən imzalanıb. Arxiv sənəd və materialları təsdiq edir ki, Abdulla bəy AXC dövründə həm də Daxili İşlər Nazirliyində tərcüməçi işləyib, qeyri-türk məmurların yenidən hazırlanması üçün dövlət tərəfindən təşkil edilmiş kurslarda isə Azərbaycan dili fənnindən dərs deyib.

### XALQ MAARİF KOMİSSARLIĞINDA FƏALİYYƏT GÖSTƏRİB

Abdulla bəy Sübhanverdixanov Sovet hakimiyyəti illərində Xalq Maarif Komissarlığında fəaliyyət göstərib. Azərbaycanda məktəb və təhsil işinin yayılmasında, qəzalarda məktəblərin təşkil edilməsində yaxından iştirak edib və həmçinin sinifdənkənar oxu üçün ədəbiyyat vəsaiti hazırlayan şöbənin üzvü olub. O, 1920-1922-ci illərdə Azərbaycan SSR Xalq Maarif Komissarlığında müxtəlif vəzifələrdə işləyib, 1922-1927-ci illərdə Azərbaycan SSR Dövlət Arxivinin müdiri, 1927-1930-cu illərdə Abdulla Şaiq adına Pedaqoji Texnikumun müdir müavini, 1930-1935-ci illərdə Azərbaycan Sənaye İnstitutunda assistent vəzifələrində çalışıb. Dövlət Arxivinin müdiri vəzifəsinə təyin edilməsi barədə Xalq Maarif Komissar-lığının 17 iyun 1925-ci il tarixli 65 saylı əmrin surəti Ədəbiy-yat və İncə-sənət Arxivi-nin 517 saylı fondun-da qayğı ilə qoru-nub saxlan-ılır.





## “Azərbaycan tarixi”ni yazmaq üçün material toplayıb

Abdulla bəy Sübhanverdixanov yaşayıb fəaliyyət göstərdiyi dövrlərdə Ali Pedaqoji İnstitutda, Zaqafqaziya Hərbi Məktəbində müəllim, Azərbaycan Dövlət Universitetində, Sənaye İnstitutunda, Xalq Təsərrüfatı İnstitutunda assistent və dosent vəzifələrində çalışıb. O, həm də Azərbaycan Elmi Tədqiqat İnstitutunun tarix şöbəsinin elmi katibi olub. Abdulla bəy Sübhanverdixanov tarix, etnoqrafiya, folklor və təbiətşünaslıq sahəsində elmi tədqiqat, “Elmi heyvanat” dərsliyini, “Müctəhid feodal Ağa Mir Fəttah”, “Şəki xanlarının tarixi və onların nəsli”, “Folklor materiallarının təsnifatı”, “Türk sistemli kəndlərdə totemizm”, “İran və Osmanlı məsələsi” əsərlərini yazıb, beş cildlik “Azərbaycan tarixi”ni yazmaq üçün material toplayıb.

### ƏDƏBİ YARADICILIĞI İLƏ DƏ TANINIB

Abdulla bəy Sübhanverdixanov Divanbəyoğlu imzası ilə bədii yaradıcılığa XX əsrin əvvəllərində başlayıb. O, bir sıra romantik povest, hekayələrin müəllifi kimi tanınıb. 1902-ci ildə qələmə aldığı “Əbdül və Şahzadə”, 1903-cü ildə “Can yanğısı”, 1906-cı ildə “İlan”, 1907-ci ildə “Fəhlə”, 1911-ci ildə “Cəng”, 1920-ci ildə “Ərdoy dərəsi”və s. əsərləri çap olunub. Abdulla bəy Sübhanverdixanovun yazdığı əsər və hekayələr özünün mövzu aktuallığı, orijinallığı və təhkiyə üslubunun yeniliyi ilə seçilib. Yazıçı, pedaqoq, folklorşünas kimi səmərəli fəaliyyət göstərmiş Abdulla bəy Sübhanverdixanov Azərbaycan mədəniyyətinin ən görkəmli simalarından biri kimi tariximizdə layiqli yerini tutur. Onun Azərbaycan xalqı, ədəbiyyatı və mədəniyyəti qarşısındakı xidmətləri xalqımız tərəfindən unudulmur, daim böyük hörmət və ehtiram hissi ilə yad edilir.

# ÇİNDƏ HAMININ GÖRMƏK İSTƏDİYİ İKİ MƏKAN

Böyük Çin Səddi dünyanın ən böyük müdafiə istehkamı, "Qadağan olunmuş şəhər" isə əsrlər boyu Çin imperatorlarının sirrini qoruyan saray kompleksi kimi məşhurdur. Bu abidələri canlı görmək isə tamamilə başqa hissdir.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Çinə səfər edən hər kəsin ən çox görmək istədiyi iki məkan var: Böyük Çin Səddi və "Qadağan olunmuş şəhər". Biri dünyanın ən böyük müdafiə istehkamı, digəri isə əsrlər boyu Çin imperatorlarının sirrini qoruyan saray kompleksi kimi məşhurdur. Coğrafiya və tarix dərsliklərindən haqqında oxuduğumuz bu abidələri canlı görmək isə tamamilə başqa hissdir: onların böyüklüyünü və əzəmətini öz gözlərinlə görəndə daha çox anlayırsan...

### TİKİNTİSİ İKİ MİN İLDƏN ARTIQ DAVAM EDİB

Pekindən Böyük Çin Səddinə avtomobillə təxminən bir saata çatmaq olur. Pekinin qədim hissəsində anlaşdığımız turşirkətlərdən biri adambaşına 200 yuan (50 AZN) ödəməklə səfərimizi Böyük Çin səddinin Mutianyu hissəsinə reallaşdırır. Səddin yüksək hissəsinə qalxmaq üçün isə kanat yolundan istifadəyə görə əlavə 140 yuan (36 AZN) ödəyirik.

Kanat yavaş-yavaş yüksəldikcə dağların qoynunda əjdaha kimi qıvrılan divar görünməyə başlayır. Zirvəyə çatanda isə heyrətdən donub qalırsan: fotolarda möhtəşəm görünən Böyük Çin Səddinin əsl möhtəşəmliyini yalnız onun üzərində dayananda hiss edirsən.

Böyük Çin Səddi təkcə divar deyil: gözətçi qüllələri, qalalar, manelər, kazarmalar, qarnizon məntəqələri və keçidlərdən ibarət vahid müdafiə sistemidir. Burada sərhəd nəzarəti aparılıb, ticarət yolları qorunub, gömrük funksiyası yerinə yetirilib, qoşunların sürətli hərəkəti təmin olunub. Qədim dövrün sərhəd xidməti, magistral yolu və hərbi qərargahı sanki bir yerdə cəmləşib.

Səddin ümumi uzunluğu 21 min 196 kilometrdir. Ümumilikdə bu nəhəng layihənin inşası 2000 ildən artıq davam edib. Abidə təkcə mühəndislik zəfərini deyil, həm də onu tikən milyonlarla insanın qəhrəmanlığını simvolizə edir.

Çinlilər bu rəqəmi turistlərə maraqlı müqayisələrlə izah edirlər: "Səddin uzunluğu ekvatorun yarısına bərabərdir. Bu, Pekindən Romaya iki dəfə piyada getmək və ya yan-yana düzülmüş 242 min futbol meydançası qədər məsafə deməkdir".

### SÜMÜKLƏR ÜZƏRİNDƏ TİKİLƏN DİVAR

Vaxtilə səddin tikintisi zamanı 2-3 milyon insan həyatını itirib. Səbəb ağır əmək şəraiti, xəstəliklər və çətin iqlim olub. El arasında "Böyük Çin Səddi sümüklər üzərində tikilib" ifadəsi də buradan yaranıb. Hətta cəsədlərin divarın içərisində basdırıldığı barədə əfsanələr də dolaşır. Tarixçilər bunu təsdiqləməsələr də, rəvayət bu gün də yaşayır.

Səddin üzərində gəzdikcə mühəndislərin uzaqgörənliyinə heyran qalmamaq mümkün deyil. Divarın bəzi hissələri o qədər enlidir ki, üzərində eyni vaxtda beş atlı və ya on əsgər yan-yana hərəkət edə bilib. Yağış sularının axıdılması üçün xüsusi drenaj kanalları da tikilib.

Marşrut boyunca pillələr gah dikləşir, gah da enir. Bəzən nəfəsin çatmır, amma dönüb arxaya baxanda bütün yorğunluq unudulur. Dağların qoynunda kilometrlərlə uzanan divar sanki üfüqdə itib-batır...

Maraqlıdır ki, Böyük Çin Səddi bu gün də "böyüməkdə" davam edir. Yeni texnologiyalar sayəsində arxeoloqlar əvvəllər məlum olmayan hissələri aşkar edirlər. Təkcə 2020-ci ildə Şimali Çində 600 kilometrdən çox qədim divar qalıqları sənədləşdirilib.

Bu möhtəşəm sənət abidəsi üç min ildir ki, Çinin simvoluna çevrilərək yaşayır. Dünyanın yeddi yeni möcüzəsindən biri olan abidə UNESCO-nun Dünya irs Siyahısındadır və hər kəsin ömründə heç olmasa bircə dəfə görməli olduğu yerlərdən biri kimi yaddaşda əbədiləşir.

### "ÇİN İMPERİYASININ ÜRƏYİ"

Pekinin tam mərkəzində yerləşən "Qadağan olunmuş şəhər"ə getmək üçün biletləri öncədən almaq tövsiyə olunur. Hər gün minlərlə ziyarətçinin üz tutduğu bu məkana yerində bilet əldə etmək saatlarla vaxt itkisi deməkdir.

Tiananmen meydanının düz qarşısında yerləşən saray kompleksi uzaqdan da möhtəşəm görünür. Hündür divarlar və su ilə dolu xəndək əsrlər boyu onu xarici dünyadan ayırıb. Bu gün "Qadağan olunmuş şəhər"ə daxil olmaq üçün yalnız üç qapıdan keçmək lazımdır: Tiananmen, Duanmen və nəhayət sarayın əsas qapısı - Vumen. Əvvəlki dövrlərdə xarici səfirlər və rəsmilər üçün saraya gedən yol daha uzun idi: onlar beş qapıdan keçirdilər.

"Qadağan olunmuş şəhər" 1406-1420-ci illərdə Min sülaləsinin imperatoru Yonqlenin əmri ilə tikilib. Sonrakı beş əsr ərzində burada Min və Tsin sülalələrindən olan 24 imperator yaşayıb və ölkəni idarə edib. Məhz buna görə də bu şəhəri "Çin imperiyasının ürəyi" adlandırırlar.

Saray kompleksi 900-dən çox sarayı, 8700-dən artıq otağı birləşdirir. Rəvayətlərdə onların sayının 9999 olduğu deyilsə də, bu daha çox Çin mədəniyyətində müqəddəs sayılan "9" rəqəmi ilə bağlıdır.

1987-ci ildən "Qadağan olunmuş şəhər" UNESCO-nun Ümumdünya irs Siyahısına daxil edilib və hazırda "İmperator Sarayı Muzeyi" kimi fəaliyyət göstərir. Burada on minlərlə qiymətli eksponat, imperator geyimləri, qədim kitablar, rəsmlər, bürünc məmulatlar və zinət əşyaları qorunur.











### BURAYA GİRMƏK ÖLÜM DEMƏK İDİ

"Qadağan olunmuş" adı təsadüfi seçilməyib. Keçmişdə imperatorun xüsusi icazəsi olmadan adi insanların bu şəhərə daxil olması qəti qadağan idi. İcazəsiz girənləri ölüm cəzası gözləyirdi.

Bu gün isə həmin darvazalardan hər gün minlərlə turist keçir. Vaxtilə yalnız imperatorun ailəsi, yüksək rütbəli məmurlar və xidmətçilərin gəzdiyi həyətlərdə indi dünyanın hər yerindən gələn insanlar şəkil çəkdirirlər.

Sarayın memarlığında hər detalın öz mənası var. Sarı rəng imperator hakimiyyətini, qızılı və qırmızı rəng gücü, tikililərin tam simmetriyası isə kainatın harmoniyasını ifadə edir.









Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
1 AVQUST ŞƏNBƏ 2026
www.kaspi.az

2026/27 mövsümünün yay transfer pəncərəsinin bağlanmasına kifayət qədər vaxt qalsa da, artıq bir sıra böyük keçidlər reallaşıb, bəzi klublar rekord məbləğlər xərcləyib. Bazarda yenə də əsas söz sahibi İngiltərə Premyer Liqası klublarıdır.

# TRANSFER BAZARINDA İSTİ YAY



Qollar vurulmur, xallar hesablanmır, turnir cədvəlləri dəyişmir, kuboklar uğrunda mübarizə getmir. Amma futbol dünyasında elə bir dövr var ki, bəzən mövsüm ərzində meydanda baş verənlərdən daha çox müzakirə olunur. Söhbət yay transfer pəncərəsindən gedir. Bu müddətdə hər gün yeni xəbərlər yayılır, milyonlarla avroluq müqavilələr imzalanır.

2026/27 mövsümünün yay transfer dönəmi də bu baxımdan istisna deyil. Hələ pəncərənin bağlanmasına kifayət qədər vaxt qalsa da, artıq bir sıra böyük keçidlər reallaşıb, bəzi klublar rekord məbləğlər xərcləyib.

### ŞƏRTLƏRİ İNGİLİSLƏR DİKTƏ EDİR

İndiyədək baş tutan keçidlərin statistikası göstərir ki, yay transfer bazarında son illərin ümumi mənzərəsi dəyişməyib. Yenə əsas söz sahibi İngiltərə Premyer Liqası klublarıdır. Dünyanın ən bahalı futbolçuları uğrunda mübarizədə ingilislər həm maliyyə imkanları, həm də cəlbedici çempionat amili ilə rəqiblərini geridə qoymağa davam edirlər. Hazırda yayın ən bahalı transferi Morqan Rocersdir. "Çelsi" 23 yaşlı hücumameyilli yarımmüdafiəçini heyətinə qatmaq üçün "Aston Villa"ya 138 milyon avro ödəyərək yayın rekorduna imza atıb. Bu, ümumiyyətlə, bir ingilis futbolçu üçün ödənilən ən böyük transfer məbləği kimi tarixə düşüb. İkinci pillədə "Mançester Siti"nin "Nottinqem Forest"dən 135 milyon avroya transfer etdiyi Elliot Anderson qərarlaşıb. İlk üçlüyü isə "Tottenhem"in "Nyukasl"dan 108 milyon avroya heyətinə qatdığı Sandro Tonali tamamlayır.

### İngilislərin cəmi üç rəqibi var

Maraqlıdır ki, keçən mövsümü uğursuz keçirən London təmsilçisi ilk "10-luq"da daha iki transferlə də təmsil olunur. Klub Portuqaliya futbolunun istedadlarından sayılan Mateuş Fernandeş üçün "Vest Hem"ə 99 milyon avro ödəyib, Yan Pol van Hekkenin "Brayton"dan transferi isə onlara 60 milyon avroya başa gəlib. "Liverpul" isə 20 yaşlı fransalı müdafiəçi Jeremi Jake üçün 63 milyondan artıq vəsait xərcləyib.

Transfer bazarında ingilislərə rəqabət təklif edən klubların sayı isə cəmi üçdür. "Barselona" "Nyukasl"dan Entoni Qordonu 80 milyon avroya transfer etməklə La Liqanı ilk "10-luq"da təmsil edən yeganə klubdur. İtaliyadan yalnız "Milan" PSJ-dən Qonsalu Ramuşu 74 milyon avroya heyətinə qataraq siyahıya düşə bilib. Avropa xaricində ilk "10-luq"da yer alan yeganə klub isə Niderland millisinin üzvü Krisensio Sammervili "Fulhem"dən 64,5 milyon avroya transfer edən Səudiyyə Ərəbistanının "Əl-Hilal" komandasıdır.

İlk onluğu "Aston Villa"nın 20 yaşlı isveçrəli yarımmüdafiəçi Yohan Manzambi üçün ödədiyi 60 milyon avroluq keçid tamamlayır. Beləliklə, ən bahalı on transferdən yeddisində alıcı tərəf məhz Premyer Liqa klublarıdır. Maraqlıdır ki, digər 3 keçidin 2-də isə "Dumanlı Albion" təmsilçiləri satışdan yaxşı məbləğ əldə ediblər.

## "Real Madrid" "qolları çırmalayıb"

Premyer Liqa klubları transfer bazarında ümumi mənzərəyə hökm edirlərsə, İspaniyada diqqətlər "Real Madrid"ə yönəlib. Ötən mövsüm kuboksuz qalan, ardıcıl ikinci dəfə La Liqa çempionluğunu əzəli rəqibi "Barselona"ya uduzan və Çempionlar Liqasında gözlənilən uğuru qazana bilməyən "Kral klubu" yay fasiləsini sakit keçirmək fikrindən uzaqdır. Klub rəhbəri Florentino Peres vəziyyətdən nəticə çıxarıb, komandanın sükanı arxasına yenidən Joze Mourinyonu gətirib və bunun ardınca transfer bazarında əsl hücuma keçib.

Artıq Madrid təmsilçisi bir neçə səs-küylü keçidi rəsmiləşdirib. Müdafiənin cinahları Denzel Dumfris və Mark Kukureya, mərkəzi İbrahima Konate ilə gücləndirilib, yarımmüdafiəyə isə azad agent kimi Bernardu Silva gətirilib. Ancaq görünən odur ki, "ağlar" bununla kifayətlənmək niyyətində deyil. Dünya mətbuatında son günlərin ən çox müzakirə olunan mövzularından biri Maykl Olisenin "Bavariya"dan Madridə keçididir.

Bu fəallığın fonunda "Barselona" yay bazarında daha çətin proses yaşayır. Kataloniya təmsilçisi komandanın əsas qol silahı Robert Levandovski ilə yollarını ayırıb və hələlik onun yerini doldura biləcək hücumçu tapmayıb. Mikel Oyarzabalın adı namizədlər arasında hallansa da, "Real Sosyedad"ın kapitanı bu keçidə razılıq verməyib.

## "Fənərbağça" çempion heyət qurur?

Türkiyə klubları da transfer bazarında kifayət qədər fəaldırlar. Xüsusilə ötən mövsüm gözləntiləri tam qarşılamayan İstanbul nəhəngləri – "Fənərbağça" və "Beşiktaş" yeni mövsüm öncəsi aktivlik göstərirlər.

Ən bahalı keçid "Fənər"ə məxsusdur. İstanbul təmsilçisi Meyson Qrinvudu 39 milyon avroya heyətinə qatmaqla Türkiyədə yayın ən səs-küylü keçidinə imza atıb. Klub bununla kifayətlənməyərək hücuma Vedat Muriqini transfer edib, müdafiə xəttini isə Natan Ake ilə gücləndirib.

"Beşiktaş" da transfer yarışında geri qalmamağa çalışır. "Qara qartallar" keçən mövsüm "Arsenal"ın əsas simalarından olan Leandro Trossardı heyətinə qatmaqla iddiasını ortaya qoyub. Klub eyni zamanda Kassum Uattara, Aleksander Nübel kimi tanınmış futbolçuları transfer edib.

Türkiyə çempionu "Qalatasaray" isə daha təmkinli davranır. "Sarı-qırmızılılar"ın ən diqqətçəkən transferi Lesli Uqoçukvunun icarəyə götürülməsidir. "Trabzonspor" Aral Şimşir, Noah Saviolo və Ruslan Malinovski kimi futbolçuları heyətinə qataraq diqqət çəksə də, transfer bazarındakı ümumi mənzərə göstərir ki, bu yay Super Liqada əsas rəqabət yenə "Fənərbağça" ilə "Beşiktaş" arasında yaşanır. Hər iki klub ötən mövsümün uğursuzluğunu unutdurmaq və "Qalatasaray"ın hegemonluğuna son qoymaq üçün ciddi pul xərcləməkdən çəkinmir.